Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

13
MART
2019-cu il
№ 48 (3946)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır
Qəzet
2003-cü ildən
nəşr olunur

# PAŞİNYANIN UĞURSUZ «FORMATDƏYİŞMƏ" TAKTİKASI VƏ MNATSAKANYANIN «XƏRCLƏNMƏK» TƏHLÜKƏSİ...

■ səh. 5 ■

*Baş nazirin Xankəndidə Təhlükəsizlik Şurası keçirməsinin sirri açılır, Paşinyan İlham Əliyevlə görüşə hazırlaşır...*

**Prezidentin geniş sosial himayə paketi və sabit qalan qiymətlər - başqa ölkələrdə tam əksinə proses gedir...** ■ səh. 3 ■

**Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın birinci xanımı Brijit Makron və Senatın sədri ilə görüşdü** ■ səh. 2 ■

**Ermənistan Azərbaycan torpaqlarında yeni qəsəbə salır, Təhlükəsizlik Şurası keçirir, beynəlxalq reaksiyalar yoxdur...** ■ səh. 4 ■

**Azərbaycanın turizm strategiyası beynəlxalq yanaşmalar müstəvisində...** ■ səh. 7 ■

**Əhliman Əmiraslanov orqan transplantasiyası gözləyən insanların dərdini MM-də yenidən qaldırdı** ■ səh. 11 ■

**Teatr və konsert işçiləri də dövlətin sosial himayə paketindən bəhrələndi...** ■ səh. 11 ■

**Azərbaycanda ən ucuz və ən bahalı kasko sığortaları...** ■ səh. 10 ■

**14 yaşadək xəstə uşaqlara baxanlara qısa iş günü - nazirliyin yeni ideyası...** ■ səh. 14 ■




## ABŞ-Rusiya qarşıdurmasında Azərbaycanı daha möhkəm enerji mövqeyinə çıxaran amillər...

■ səh. 6 ■




**NATO-dan qəribə bəyanat - Ermənistan dünyada sülhə həqiqətən töhfə verən olsaydı...** ■ səh. 4 ■




**Almaniyanın Azərbaycana diri heyvan satışını məhdudlaşdırmasına dair inanılmaz izah...** ■ səh. 12 ■

**Camaata yedizdirilən leş əti söhbətləri qızışır, Qida... Agentliyi susur...** ■ səh. 10 ■

■ səh. 8-9 ■
**Ə.Vəzirova açıq məktub**



■ səh. 6 ■
**İranda nə baş verir - əvvəlcə Məşhəddə əxlaqsızlıq yuvası, sonra alkoholdan kütləvi zəhərlənmə, daha sonra...**



■ səh. 7 ■
**Bəzi dövlət təşkilatlarının hədiyyələr adı altında yol verdiyi israfçılığın inanılmaz mənzərəsi...**



■ səh. 15 ■
**Mirzə Cəlil irsindəki müsəlman-erməni münasibətlərinə aid fraqmentləri redaktə edəkmi - ədəbi dairələrdə kəskin diskussiya gedir...**



■ səh. 12 ■
**Nazirlik uşaqların birinci sinfə qəbulunda valideynlər üçün çox üzücü proseduru xeyli sadələşdirdi...**





## Prezident İlham Əliyev Naxçıvan MR-lə də bağlı iki mühüm sərəncam imzaladı

**Prezident İlham Əliyev çoxmənzilli binaların dam örtüklərinin təmiri ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, çoxmənzilli binaların dam örtüklərinin təmiri məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 2 206 000 manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

Maliyyə Nazirliyinə sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılır.

Prezident İlham Əliyev çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlər haqqında da sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 449 min manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək, Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

# Prezident İlham Əliyev ABŞ-ın yeni səfirini qəbul etdi

**Prezident İlham Əliyev martın 12-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqerin etimadnaməsini qəbul edib.**

Örl Litzenberqer Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edib və fəaliyyəti müddətində iki ölkə arasında əlaqələrin daha da inkişafı məqsədilə səylərini əsirgəməyəcəyini vurğulayıb.



Prezident İlham Əliyev Örl Litzenberqeri ölkəmizə səfir təyin olunması münasibətilə təbrik edib və onun səfir kimi fəaliyyəti dövründə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin daha da genişlənəcəyinə və inkişaf edəcəyinə əminliyini bildirib. Prezident İlham Əliyev və səfir Örl Litzenberqer Azərbaycan-ABŞ əlaqələrinin yüksək səviyyədə olması və uğurlu inkişafından məmnunluq ifadə edib. Səfir Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhməramlı əməliyyata canlı qüvvə ilə töhfəsini və həmçinin bu əməliyyat əsnasında göstərdiyi logistik və nəqliyyat dəstəyinin ABŞ hökuməti tərəfindən yüksək qiymətləndirildiyini qeyd edib. Söhbət zamanı siyasi əlaqələr, enerji təhlükəsizliyi, ticarət, demokratik inkişaf məsələləri ətrafında fikir mübadiləsi aparıldı, humanitar sahədə, o cümlədən insanlar arasında əlaqələrin inkişafının əhəmiyyəti vurğulanıb.

Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edilib, Prezident İlham Əliyev Azərbaycanın münaqişənin həllinə dair beynəlxalq hüququn norma və prinsiplərinə və ədalətə əsaslanan mövqeyini diqqətə çatdırıb, bildirib ki, Azərbaycan tərəfi ATƏT-in Minsk Qrupunun həmsədrlərinin son bəyanatı, o cümlədən danışıqlar formatının dəyişdirilməməsi ilə bağlı fikirlərini müsbət qarşılayır.

Prezident İlham Əliyev və səfir Örl Litzenberqer Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin gələcək inkişafı və daha çox sahələri əhatə etməsinin önəmi barədə fikir mübadiləsi aparıblar.

# Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın birinci xanımı Brijit Makron və Senatın sədri ilə görüşdü

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 12-də Yelisey sarayında Fransanın birinci xanımı Brijit Makronla görüşü olub.**

Görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edilib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Parisə səfərinin əlaqələrin inkişafına mühüm töhfə verəcəyi bildirilib. Söhbət zamanı ailə-qadın, gender bərabərliyi, təhsil, ətraf mühitin qorunması və digər məsələlərlə bağlı müzakirələr aparılıb, Bakıda Fransız Liseyinin fəaliyyətinin məmnunluq doğurduğu qeyd olunub, Şərqdə hüquq elminin ilk dəfə Azərbaycanda tədris edildiyi bildirilib. Mehriban Əliyevanın rəhbərliyi ilə müxtəlif dövlərlərdə Fransada keçirilən mədəniyyət tədbirlərinin əhəmiyyəti vurğulanıb.

Mehriban Əliyeva Fransanın birinci xanımı Brijit Makronu ölkəmizə səfərə dəvət edib. Dəvət məmnunluqla qəbul olunub.

Birinci vitse-prezident Mehriban Əliyeva martın 12-də Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə də görüşüb.

Fransa Senatının sədri Jerar Larşe Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşılayıb.

Mehriban Əliyeva Senatda Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlərilə görüşüb.

Sonra Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransa Senatının sədri Jerar Larşenin görüşü olub.

Jerar Larşe ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirib. Prezident İlham Əliyevin ötən ilin iyulunda Paris səfərini



məmnunluqla xatırlayan Senatın sədri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da Fransa-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verdiyini, onun mədəniyyət, elm və təhsil sahələrində böyük xidmətlərinin olduğunu vurğulayıb, Azərbaycanda qadınlara səsvermə hüququnun hələ Fransadan əvvəl verildiyini diqqətə çatdırıb. Fransanın Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında maraqlı olduğunu deyən Senatın sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışarkən bildirib ki, ölkəsi ATƏT-in Minsk Qrupunun həmsədri kimi münaqişənin sülh yolu ilə həllinə tərəfdardır.

Azərbaycanın Birinci vitse-prezidenti Fransaya səfərinin uğurlu olduğunu və səfər çərçivəsində bir sıra səmərəli görüşlərin keçirildiyini bildirib. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsini qeyd edən Azərbaycanın Birinci vitse-prezidenti əməkdaşlıq baxımından böyük potensialın olduğunu deyib. Azərbaycan-Fransa iqtisadi əməkdaşlığının daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayan Mehriban Əliyeva fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırıb, Azərbaycanın iştirakı olmadan regionda heç bir layihənin reallaşmadığını və ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırıb. Ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin də yüksək səviyyədə olduğunu deyən Mehriban Əliyeva Tərəfdaşlıq Prioritetləri sənədinin imzalanmasının əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə, sülh və danışıqlar yolu ilə beynəlxalq hüququn normaları və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulayan Mehriban Əliyeva bildirib ki, münaqişənin mövcudluğu bütün regionun inkişafına və təhlükəsizliyinə ciddi təhdiddir.

Görüşdən sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Senatının xatirə kitabını imzalayıb.


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Prezidentin geniş sosial himayə paketi və sabit qalan qiymətlər - başqa ölkələrdə tam əksinə proses gedir...

**Əvvəllər maaş və pensiyalar artan kimi, bu o dəqiqə qiymətlərə təsir göstərirdi. Vətəndaşlar artımları hələ almadan görürdülər ki, bazarlarda qiymətlər bahalaşmağa başlayır. Əksər hallarda belə qiymət artımları bazarda tələbin artmasından yox, süni amillərdən qaynaqlanırdı.**



*"Görülən işlər monopoliyanın aradan qaldırılmasına və süni qiymət artımının qarşısının alınmasına xidmət edir"*

Bir növ, işbazlar bundan sui-istifadə edərək qiymətləri artırırdılar. Bu da, əlbəttə ki, aztəminatlı insanların sosial vəziyyətinə mənfi təsir göstərirdi. Nəticədə artımlar inflyasiyaya məruz qalırdı.

Məlum olduğu kimi, bu ildən başlayaraq Prezident İlham Əliyevin sərəncamları ilə pensiyalar, maaşlar, bütün sosial müavinətlər əhəmiyyətli dərəcədə artırıldı. Sözügedən qərarlar bu gün də davam etdirilir. Elə sahələr var ki, orada əməkhaqqı 50 faiz, bir sıra sosial müavinətlər bir neçə dəfə artırılıb. Bu ilin əvvəlindən bütün pensiyaların sığorta hissəsi qaldırıldı. Martın 1-dən minimum əməkhaqqı 38.4 faiz artırılaraq 130 manatdan 180 manata çatdırılıb. Minimum əməkhaqqının artırılması nəticəsində dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl

***Rəsul Cahangirli:** "Ölkədə biznes və işgüzar şərait aparılan islahatlar fonunda daha da yaxşılaşıb"*

sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım olacağı deyilir.

Bundan əlavə, martın 1-dən etibarən əmək pensiyası alanların da pensiyalarına əlavələr təyin olunub. Minimum pensiya məbləğinin artırılması, ümumilikdə, 233 min pensiyaçını, o cümlədən, 140 min nəfər əlilliyə görə pensiya alan şəxsi əhatə edəcək. Artımların digər sahələrdə də olacağı gözlənir.

Bütün bunlarla yanaşı, diqqətçəkən və maraqlı məqam ondan ibarətdir ki, il başlayandan həyata keçirilən sözügedən artımlar bazarlarda qiymətlərin yüksəlməsinə, bir sözlə, qiymət artımına gətirib çıxarmır. Düzdür, mövsümi amillərlə, bayramla əlaqədar olaraq bəzi məhsulların qiymətində bahalaşma var. Ancaq nəzərə almaq lazımdır ki, belə hallar hər il yaşanır. Bayram bitəndən sonra vəziyyət axarına düşür.

Maraqlıdır, pensiya və maaşların artması fonunda bu il qiymət artımı niyə müşahidə olunmur?

**Sözügedən məsələyə aydınlıq gətirən ekspert Rəsul Cahangirli bunu bir sıra amillərlə əlaqələndirdi:** "Bunun başlıca səbəbi ölkədə aparılan kompleks islahatlarla bağlıdır. Məsələ ondadır ki, ölkədə biznes və işgüzar şərait aparılan islahatlar fonunda daha da yaxşılaşıb. Sahibkarlıq fəaliyyəti ilə bağlı prosedurlar sadələşdirilib. Sahibkarlar bir sıra güzəştlərdən istifadə edirlər. Gömrük prosedurları əvvəlki illərlə müqayisədə çox sadələşdirilib. Bu işlərdə insan amilinin rolu minimuma endirilib. Tətbiq olunan "bir pəncərə" sistemi sahibkarlara daha geniş imkanlar yaradır, seçim imkanları artır. Bu zaman rahat şəkildə istənilən məhsulu ölkəyə gətirmək mümkündür. Təsadüfi deyil ki, həyata keçirilən islahatlar nəticəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı artır. Digər tərəfdən, görülən işlər monopoliyanın aradan qaldırılmasına və süni qiymət artımının qarşısının alınmasına xidmət edir. Kənd təsərrüfatı məhsullarının satışı ilə bağlı yarmarkalar təşkil olunur. Prezident İlham Əliyevin tapşırığı ilə Novruz yarmarkaları keçirilir ki, sakinlərin seçim imkanı geniş olsun. Bu günlərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bəyan etdi ki, həm BŞİH, həm də Kənd Təsərrüfatı Nazirliyinə və digər strukturlara, birmənalı olaraq, yarmarkalarda qiymətlərin aşağı olmasına nəzarət edilməsi tapşırılıb. Bütün bu və digər tədbirlərin kompleks şəkildə görülməsi pensiyaların, maaşların artırılmasından sonra qiymət artımının qarşısını alır. Hesab edirəm ki, bu yöndə atılan addımlar doğru qərardır".

***Vidadi ORDAHALLI***

# Tural Gəncəliyev Ermənistan XİN-ə qarşı...

**Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Tural Gəncəliyev ATƏT-in Minsk Qrupunun həmsədrlərinin sonuncu bəyanatı ilə bağlı Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin "xarici işlər nazirliyi"nin "nümayəndəsi"nin açıqlamasına cavab olaraq şərhlə çıxış edib. Şərhdə deyilir:**




İşğal edilmiş Azərbaycan ərazilərində yaradılmış qondarma rejimin "xarici işlər nazirliyi"nin "nümayəndəsi" ATƏT-in Minsk Qrupunun həmsədrlərinin sonuncu bəyanatına kölgə salmaq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə əlaqədar aparılan danışıqlara xələl gətirmək və diqqəti danışıqların predmetindən yayındırmaq məqsədilə növbəti əsassız açıqlama verməkdir. Belə ki, qondarma "nümayəndə" ATƏT-in Nazirlər Şurasının Helsinki və Budapeşt sammitlərində qəbul edilmiş sənədlərlə bağlı cəfəngdolu iddialar irəli sürməklə beynəlxalq ictimaiyyəti çaşdırmağa cəhd göstərmişdir.

Qarşı tərəfin "nümayəndəsi" Helsinki sammitinin sənədlərinə əsasən münaqişənin tərəfləri (təcavüzkar Ermənistan və hərbi işğala məruz qalmış Azərbaycan) ilə yanaşı, maraqlı tərəflər qismində yalnız Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasının mövcudluğundan danışıb, azərbaycanlı icmasını görməməzdikdən gəlirsə, onun sözügedən sənədin məğzini dərk etmək qabiliyyətinin olmaması yalnız təəssüf hissi doğurur.

Qondarma "rəsmi şəxs" əgər Budapeşt sammitinin sənədindən danışırsa və bu sənədin öhdəliklərinə sadiqdirsə, onda sənədə tam şəkildə əməl etməlidir. 1994-cü il Budapeşt Sammitində iştirakçı ölkələrin dövlət və hökumət başçıları səviyyəsində qəbul olunmuş sənəddə isə deyilir: "Onlar (ATƏT-in iştirakçı ölkələrinin dövlət və hökumət başçıları) BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə dair öhdəliklərini təsdiq edərək tərəfləri intensiv substantiv danışıqlara, silahlı münaqişənin dayandırılması üçün siyasi sazişin bağlanması məqsədilə sürətli şəkildə danışıqların davam etdirilməsinə çağırdılar".

Xatırlatmaq istərdim ki, BMT TŞ-nin 1993-cü il tarixli 853 və 884 saylı qətnamələrində məhz "Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməniləri"nə istinad edilir və bu da öz növbəsində ATƏT-in müvafiq qərarlarında, o cümlədən MQ həmsədrlərinin sonuncu bəyanatında qeyd edilən "maraqlı tərəflər" ifadəsini özündə ehtiva edir.

Qeyd olunanlarla bərabər, 1994-1995-ci il atəşkəs haqqında müzakirələrin tərkib hissəsi olan 1995-ci ilin 5 noyabr tarixli "Xüsusilə işğal olunmuş ərazilərdə vəziyyətin tənzimlənməsinə dair tədbirlərin vaxt cədvəli" adlı II saylı əlavəni qeyd etmək lazımdır. Bu sənəddə konkret şəkildə müvafiq vaxt cədvəlinə uyğun olaraq Azərbaycanın işğal edilmiş Ağdərə, Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər və Laçın rayonlarından qoşunların çıxarılması və minalardan təmizləmə əməliyyatı barədə tədbirlər nəzərdə tutulur.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icması Sarqisyan-Köçəryan xuntasının davamı olan işğalçı rejimin əsarətində qalmaqda davam edir.

Bölgədə daimi və ədalətli sülhün bərqərar olmasının yeganə yolu işğalçı Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılması və oradan qovulmuş azərbaycanlı əhalinin öz torpaqlarına geri dönüşü ilə mümkündür. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri, suverenliyi və ərazi bütövlüyü çərçivəsində yenidən sülh şəraitində birgə yaşamağa qadir olduqlarına inanır və bu məqsədlə dialoqa hazırdır.

# NATO-dan qəribə bəyanat - Ermənistan dünyada sülhə həqiqətən töhfə verən olsaydı...

**NATO baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə xüsusi nümayəndəsi Ceyms Appaturay İrəvanda jurnalistlərə açıqlamasında deyib ki, Dağlıq Qarabağ münaqişəsinin uğurlu həll yolu yoxdur: "Biz münaqişələrin həlli prosesinə cəlb olunmamışıq, ancaq müttəfiqlərimiz və tərəfdaşlarımız regionda sülhə maraqlıdırlar.**



*"...NATO-nun nüfuzuna böyük zərbə vurub"*

## *Yeganə Hacıyeva: "Xüsusilə də işğalçı ölkəni sülhə böyük töhfə verən adlandırmaq daha üzücüdür"*

NATO-nun rəyinə əsasən, Qarabağ münaqişəsi yalnız sülh yolu ilə həll edilə bilər, uğurlu hərbi variant yoxdur. Bu mövqeyi bütün tərəflərin nəzərinə çatdırırıq".

Nə qədər qəribə olsa da, NATO rəsmisi Ermənistanın nümayiş etdirdiyi "sülhməramlı" təşəbbüsləri dəstəklədiyini bildirib. Xüsusilə də həmin ölkənin Əfqanıstandakı səylərini yüksək dəyərləndirdiyini vurğulayıb. NATO-nun yüksək rəsmisi çox böyük yanlışlığa yol verərək Ermənistanı sülhə böyük töhfə verən ölkə kimi xarakterizə edib. Əslində, NATO rəsmisi gözəl bilir ki, Ermənistan uzun müddətdir başqa ölkənin ərazisini işğal altında saxlayır. Həmin ölkənin yeni hakimiyyəti düz bir ildir danışıqlar formatının dəyişməsi kimi mümkünsüz bir məsələni ortaya atmaqla sülh danışıqlarından yayınır. Bütün bunların aydın şəkildə göründüyü halda, Appaturay niyə NATO kimi qurumun reputasiyasına xələl gətirən açıqlama ilə çıxış edir?

**Politoloq Yeganə Hacıyeva qəzetimizə bildirdi ki, NATO-nun strateji hədəfi aydındır:** "Onlar maksimum dərəcədə Rusiyaya doğru nüfuz dairələrini artırmaq istəyirlər. Bununla bağlı hətta proqramın adı da var "NATO-nun Şərqə doğru genişlənməsi" adlanan həmin layihəni Rusiya çox qıcıqla qarşılayır. Bu yöndə NATO-nun əsas hədəflərindən biri də Cənubi Qafqazda möhkəmlənməkdir. Gürcüstanla həmin istiqamətdə ciddi işlər aparılıb və həmin ölkənin Alyansa üzvlüyünə bir neçə addım yolu qalıb. Azərbaycan isə müstəqil siyasət yürüdür və Qoşulmayanlar Hərəkatının üzvü kimi NATO-ya üzv olmaq kimi öhdəlik üzərinə götürməyib. Təsadüfi deyil ki, Azərbaycan digər hərbi bloklardan da məsafə saxlayır. Ancaq Ermənistan bütün tərəflərə meyl edir. Onların NATO ilə yaxından əməkdaşlığı gülməli görünür. Çünki bir ölkənin ki, ərazisində Rusiyanın hərbi mövcudluğu var, ondan necə NATO aşiqi çıxa bilər? NATO rəsmiləri bunu bizdən də gözəl bilirlər. Sadəcə, addım-addım Ermənistanın könlünü ala-ala onunla yaxınlaşmaq yolunu tuturlar. Zəmin yaradırlar ki, mahiyyətcə sürüşkən olan həmin ölkə nə vaxtsa ruslardan qopub, onlara asanlıqla meyllənə bilsin. Ermənistanın NATO ilə əlaqələrinə ən gözəl qiyməti Ermənistanda başlayan NATO həftəsi ilə əlaqədar sualı şərh edən Almaniyanın Ermənistandakı səfiri Matias Kisler verib. O deyib ki, Ermənistanda ictimaiyyətin çox az hissəsi NATO-nun fəaliyyəti barədə məlumatlıdır. Səfir bildirib ki, yalnız mütəxəssislərin arasında müzakirələr aparılmalı deyil, həm də ictimaiyyətin bütün təbəqələrinin burada iştirakı vacibdir. Buna görə də NATO rəsmisinin Ermənistan barədə səsləndirdiyi fikirlər heç də səmimi görünmür. Xüsusilə də işğalçı ölkəni sülhə böyük töhfə verən adlandırmaq daha üzücüdür. Çox güman ki, NATO rəsmisi Ermənistanın Alyans daxilindəki sülhməramlı təşəbbüslərini nəzərə alaraq bu açıqlamanı verib. Amma bunu Dağlıq Qarabağla bağlı məsələyə münasibət bildirməklə yanaşı deyirsə, deməli, NATO-nun nüfuzuna böyük zərbə vurub. Qeyd edim ki, NATO-nun münaqişə ilə bağlı qəbul etdiyi mühüm qərarlar var. Qurumun Müdafiə və təhlükəsizlik komitəsinin suveren ölkələrin ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı qətnaməsi mövcuddur. Bu baxımdan da NATO rəsmiləri Ermənistana münasibətdə ifadələri seçərkən daha korrekt olmalıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistan Azərbaycan torpaqlarında yeni qəsəbə salır, Təhlükəsizlik Şurası keçirir, beynəlxalq reaksiyalar yoxdur...

**Sözdə danışıqlar tərəfdarı olduğunu bəyan edən Ermənistan reallıqda işğalçılıq siyasətini davam etdirir. Bununla bağlı müxtəlif təxribatçı vasitələrə əl atır. Elə işğal zonasında qanunsuz məskunlaşma işlərinin aparılması faktları da düşmənin dinc yolla ərazilərimizdən əl çəkmək niyyətində olmadığını göstərir.**




*"... beynəlxalq müstəvidə bu ölkənin əleyhinə işləyəcək"*

## *Mübariz Əhmədoğlu: "Belə hallara qarşı daha sərt və konkret reaksiya verilməlidir"*

Həyasızlığın dərəcəsinə bax ki, Ermənistan rəsmiləri açıq şəkildə işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma siyasətinə rəvac verirlər. Bu günlərdə Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanesyan Dağlıq Qarabağa, həmçinin, işğal altındakı Füzuli rayonuna qanunsuz səfər edib. O, Xankəndidəki terrorçu rejimin rəhbərliyi ilə Araz çayı sahillərində erməni yaşayış məntəqələrinin yaradılması və bura ermənilərin köçürülməsi məsələlərini müzakirə edib. Ermənistan rəsmisi onu da demişdi ki, Füzuli rayonunda ermənilər "Araksavan" adlı qəsəbə salmaq, burada infrastruktur yaratmaq və kənd təsərrüfatını inkişaf etdirmək niyyətindədirlər. Onun iddiasına görə, ermənilərin bu ərazilərdə yerləşdirilməsi Dağlıq Qarabağ ermənilərinin əsas təhlükəsizlik təminatlarından biridir.

Bundan başqa, Ermənistanın Milli Təhlükəsizlik Şurasının iclası ilk dəfə olaraq Xankəndidə, Azərbaycan torpaqlarında keçirilir. İndiyə qədər belə hal baş verməmişdi. Bu açıq-aşkar təxribatdır. Bir dövlət digər dövlətin ərazisində qanunsuz olaraq rəsmi tədbir keçirir. Başqa dövlətin Təhlükəsizlik Şurasının ölkəmizdə iclasının keçirilməsi beynəlxalq hüququn kobud pozulmasıdır. Ancaq təəssüflər olsun ki, danışıqlarda vasitəçilik edən ATƏT-in Minsk Qrupu bütün bunlara heç bir etiraz etmədi. Halbuki, bu təxribata görə həmsədrlər Ermənistandan izahat tələb etməli idilər. Paşinyan danışıqlar formatını dəyişdirə bilməsə də, təxribatlar törətməkdə davam edir. Ancaq bütün bunlara görə ATƏT-in Minsk Qrupunun həmsədrlərindən hələ də konkret və kəskin reaksiya yoxdur. Bütün bunları ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, Vanesyanın təxribatçı açıqlamasına reaksiya oldu, amma bu elə də kəsərli təsir bağışlamadı:** "A.Vanesyan Araz boyu ərazilərə səfəri zamanı bir sıra təxribatçı açıqlamalar verdi. O cümlədən qeyd etdi ki, Qarabağın bir qarışını da Azərbaycana verməyəcəklər. ATƏT-in Minsk Qrupunun sonuncu bəyanatında qeyd olunub ki, Dağlıq Qarabağın ətrafındakı ərazilər Azərbaycanın nəzarətinə qayıtmalıdır. A.Vanesyan da hara gəlmişdi? Füzuli rayonuna. Hansı ki, bu rayon Dağlıq Qarabağa aid deyil. ATƏT-in bəyanatı o deməkdir ki, həmin ərazilər Azərbaycana qaytarılmalıdır. Hesab edirəm ki, bu, sözügedən məsələyə verilən reaksiyadır. Bütün hallarda, Ermənistan rəsmi şəxsinin başqa ölkənin ərazisinə belə qanunsuz səfər etməsi və məskunlaşma ilə bağlı açıqlamalar verməsi təxribatdır. Belə hallara qarşı daha sərt və konkret reaksiya verilməlidir. İndi də Ermənistan Dağlıq Qarabağda Milli Təhlükəsizlik Şurasının iclasını keçirir. Bu da təxribatdır və buna beynəlxalq qurumlar reaksiya verməlidirlər. Digər tərəfdən, bu, Ermənistanın tarix boyu etdiyi ciddi səhvlərdən biridir. Bu onu göstərir ki, Paşinyan hökuməti siyasət, beynəlxalq hüquq nədir bilmir. Onun ümumiyyətlə siyasətdə səviyyəsi, savadı, səriştəsi yoxdur. Avropa İnsan Hüquqları Məhkəməsində Ermənistanla bağlı bir neçə iş var. Həmin işlərin hamısı onun üzərindədir ki, Dağlıq Qarabağdakı ermənilər özlərini idarə edir, yoxsa Ermənistan tərəfindən idarə olunurlar? Azərbaycanın bununla bağlı qaldırdığı iddiaların hamısında aydın xətlə göstərilib ki, Dağlıq Qarabağ Ermənistan tərəfindən idarə olunur.

**Ermənistan isə həmişə çalışıb sübut etsin ki, separatçı qurum özü-özünü idarə edir. Ermənistanın MTŞ-nin iclasını Qarabağda keçirməsi beynəlxalq müstəvidə bu ölkənin əleyhinə işləyəcək. Çünki bu bir daha sübut edir ki, separatçı qurumu Ermənistan idarə edir".**

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Paşinyanın uğursuz "formatdəyişmə" taktikası və Mnatsakanyanın "xərclənmək" təhlükəsi...

*Baş nazirin Xankəndidə Təhlükəsizlik Şurası keçirməsinin sirri açılır, Paşinyan İlham Əliyevlə görüşə hazırlaşır...*

**ATƏT-in Minsk Qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin həll formatının dəyişdirilməsinin mümkünsüz olmasına dair məlum bəyanatına Ermənistanda verilən reaksiyalar prosesin bu ölkədə əsl şok effekti yaratdığını üzə çıxarır. Xatırladaq ki, həmsədrlərin bəyanatına əsasən, münaqişə üzrə danışıqların formatı dəyişdirilə bilməz.**

Danışıqların əsasını isə işğal olunmuş ərazilərin azad edilməsi və məcburi köçkünlərin geri qayıtması təşkil edir.

Belə yanaşma tərzi artıq Ermənistan üçün böyük məğlubiyyət qismində qəbul edilir. Eyni zamanda, Ermənistanda hesab edirlər ki, baş nazir Nikol Paşinyan indiyə qədər olan formata yenilik gətirməyə cəhd etməsəydi, İrəvan belə sərt zərbəyə də tuş gəlməzdi. Bu durumda etdiyi səhvlərin acı nəticələrini görən Paşinyan yeni gedişlər etməyə çalışır və onun işğal altındakı ərazilərə gəlişi, burada Ermənistan Təhlükəsizlik Şurasının iclasında iştirakı da elə bu qəbildən olan hal kimi qiymətləndirilir. Erməni mediası yazır ki, Paşinyanın gedişləri, əslində onu xilas edə bilməyəcək. Belə vəziyyətdə baş nazir özünü xilas üçün indi digər variantlar üzərində düşünür. Ermənistanın "Past" qəzeti hakimiyyət daxilindəki mənbələrinə istinadən yazır ki, Qarabağ separatçılarının tərəf kimi danışıqlar prosesində iştirakı tələbi fiaskoya uğrasa, Paşinyan "B" planını işə salacaq.

Qeyd olunur ki, Paşinyanın Ermənistan Təhlükəsizlik Şurasının iclasında iştirak etmək üçün Xankəndiyə gəlməsi və separatçıların lideri Bako Saakyanla görüşməsinin məqsədi də gələcəkdə atıla biləcək alternativ addımlar üzərində baş sındırmaqdır. Qəzet səfərin ATƏT-in Minsk Qrupu həmsədrlərinin "Qarabağ münaqişəsinin nizamlanması üzrə mövcud danışıqlar formatı dəyişdirilə bilməz" bəyanatından sonra reallaşmasını bununla əlaqələndirir: "Qarabağ məsələsi üzrə Ermənistan hökumətinin bir neçə variantı var. Lakin, xüsusən də Minsk Qrupu həmsədrlərinin son bəyanatından sonra Paşinyan "B" planı üzərində düşünməyə başlayıb. Plan isə ondan ibarətdir ki, perspektivdə Ermənistan üçün heç də yaxşı olmayan proseslər başlayarsa, Paşinyan "günah keçisi" axtaracaq və nəticədə, yürütdüyü xarici siyasətə görə məsuliyyəti xarici işlər naziri Zöhrab Mnatsakanyanın üzərinə atacaq. Belə olduqda, o, sadəcə XİN rəhbərini dəyişəcək. Bu isə bir tərəfdən vaxt udmağa, digər tərəfdən isə Qarabağ danışıqlarındakı bütün uğursuzlaqları və günah yükünü Mnatsakanyanın üstünə atmağa imkan verəcək".

Erməni siyasi texnoloq Vigen Akopyan da bildirir ki, Paşinyanın Qarabağdakı separatçı rejimi danışıqlara tərəf kimi cəlb etmək niyyəti Ermənistanın sərt diplomatik zərbə almasına səbəb olub. Ekspertin fikrincə, yaranmış vəziyyətdə Paşinyan əvvəlki formata qayıtmağa məcburdur və bunu separatçı rejimlə də razılaşdıracaq: "Ermənistan Təhlükəsizlik Şurasının iclasının Xankəndidə keçirilməsi Nikol Paşinyana Dağlıq Qarabağın mövqeyinin Azərbaycan prezidenti İlham Əliyevlə görüşdə təmsil edilməsi üçün mandat verəcək. O, Əliyevlə danışıqlar zamanı Qarabağ hakimiyyəti tərəfindən müəyyən mandat əldə etmək istəyir".

Milli Gündəlik Partiyasının həmtəsisçisi Avetik Çalabyan isə bildirir ki, Paşinyanın istənilən cəhdi əbəsdir və danışıqlar formatı məsələsində Azərbaycanın istədikləri qəbul edilir: "Bu mənada, insanların gözünə kül üfürməyi dayandırmaq lazımdır. Minsk Qrupunun həmsədrləri bir daha "Madrid prinsipləri" əsasında Qarabağ münaqişəsinin nizamlanmasının zəruriliyinə dair bəyanat yayıblar. Bəyanatın bütün tərəflərə ünvanlanmasına baxmayaraq, məntiqi olaraq bu, daha çox erməni tərəfinə aid edilib. Amma Ermənistan üçün "Madrid prinsipləri" Qarabağ münaqişəsinin nizamlanmasının hüquqi əsasını təşkil edə bilməz".

Çalabyan qeyd edir ki, bu prinsiplər 2007-2009-cu illərdə formalaşdırılıb və həmin dövrdə münaqişənin nizamlanması üzrə qarşılıqlı güzəşt mexanizmi ilə bağlı təsəvvürləri ifadə edirdi: "Bu, əvvəlcədən də ərazilərin Azərbaycana qaytarılmasını, Qarabağın yekun statusunun müvəqqəti təxirə salınmasını, geri qayıdacaq azərbaycanlıların da nəticələrə təsir edə biləcəyi referendum yolu ilə həllini nəzərdə tuturdu. Aydındır ki, bu variant ermənilər üçün əlverişsiz mövqelərdə yeni müharibəyə gətirib çıxara bilər. Yaxud xarici qüvvələrin təsiri altında həyata keçirilən referendum vasitəsilə Qarabağın Azərbaycanın tərkibinə qaytarılmasına gətirib çıxaracaq.

Ermənistanın yeni hakimiyyəti bu prinsipləri Azərbaycanın xeyrinə hazırlandığını gözəl dərk edən köhnə hakimiyyətdən miras olaraq qəbul edib. Bunun əsasında Qarabağ məsələsinin ermənilərin xeyrinə nizamlanması mümkün deyil. Bu prinsipləri dəyişə bilməyərək, həmçinin ildən-ilə zəifləmiş mövqedən çıxış edərək, keçmiş hakimiyyət möcüzə gözləməklə vaxtı uzatmağa üstünlük verirdi. Onların əli ilə möcüzənin baş verməyəcəyi aydın olduqda, əvvəlkilər "Madrid prinsipləri"ni miras olaraq yenilərə təhvil verdilər. Bu gün Ermənistanın yeni hakimiyyəti iki mürəkkəb seçim qarşısında qalıb. Aydındır ki, bu prinsiplər əsasında imzalanan istənilən müqavilə ermənilərin böyük əksəriyyəti tərəfindən qəbul edilməyəcək. Bu müqavilə onu imzalayan hakimiyyətin sonunu gətirəcək. Bunu yeni, son vaxtlar öz hərbi ritorikalı bəyanatlarını kəskinləşdirən hakimiyyətin ayrıca üzvləri çox yaxşı dərk edir. Digər tərəfdən, bu gün danışıqlardan imtina edilməsi artıq bu dəfə vasitəçi ölkələrin səssiz icazəsi və ermənilər üçün misli görünməmiş nəticələrə səbəb ola biləcək, Azərbaycanın yeni müharibə təşəbbüsünə imkan yaradacaq.

Bu gün münaqişənin həll yolu birmənalı deyil. Danışıqlar prosesində iştirak, gedişatda isə nizamlama prinsiplərinə təsir etməklə, vasitəçi ölkələrə bu prinsiplərlə münaqişənin həll olunmasının mümkünsüzlüyünü əsaslandırmaq lazımdır. Eyni zamanda, həmin vasitəçi tərəflərlə birlikdə, xüsusilə də son bir ildə kifayət qədər zərər çəkən ikitərəfli münasibətləri bərpa etmək lazımdır. Bu, yeni hakimiyyətin ən böyük səhvidir. Nəhayət, son olaraq, insanların gözünə kül üfürməyi dayandırmaq, ölkəni və bütün erməni aləmini müharibəyə hazırlamaq lazımdır. Amma nəzərə alaq ki, rəqib hərbi sahədə bizdən xeyli qabağa gedə bilib. Bir sözlə, çıxılmaz vəziyyətdir".

Ermənistanın "Hraparak" nəşri də bildirir ki, Paşinyanın yanlış gedişləri ciddi problemlər yaradıb və Respublika Partiyasının sədr müavini Armen Aşotyanın dediyi kimi, vəziyyəti başlanğıc nöqtəsinə qaytara bilər: "Aşotyana görə, Minsk Qrupunun həmsədrlərinin sonuncu bəyanatı çox diqqətəlayiqdir. O bildirir ki, Nikol Paşinyanın tələskənliyindən, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında öz səylərinə həddindən artıq inam nəticəsində təxminən bir il keçdikdən sonra Vyana, Sankt-Peterburq və Cenevrə razılaşmalarının həyata keçirilməsinin zəruriliyini qeyd etmədən başlanğıc nöqtəsinə qayıtmaq təhlükəsi var. Bəs hansı başlanğıc nöqtəsindən söhbət gedir? Belə başa düşmək olar ki, 1 il əvvəl vasitəçilər tərəflərə hər hansısa təkliflər verib? 1 il əvvəl Ermənistanda hakimiyyətin taleyi həll edilirdi. Serj Sarkisyan prezidentliyi tərk edir və baş nazirliyə hazırlaşırdı. Ümumi olaraq, ATƏT-in Minsk Qrupunun açıqladığı bəyanatda təsvir edilən nizamlama yolu ilə getməyə həmin dövrdə Ermənistan hazır idi?

Aşotyanın fikrincə, keçən 1 il zamanın yersiz itirilməsi idi. Ona görə ki, nizamlama konsepsiyasında heç nə dəyişməyib. Hər şey başlanğıc nöqtəsinə qayıdır. Aşotyan hesab edir ki, hakimiyyət dəyişikliyi Qarabağ məsələsinə heç bir irəliləyiş gətirməyib. O zaman belə hesab etmək olar ki, Serj Sarkisyan hakimiyyətdən imtina etməsəydi, münaqişənin həllində irəliləyişə nail olmaq olardı. Daha öncə rusiyalı ekspert Aleksandr Duqin qeyd edib ki, vasitəçilər əvvəllər əldə edilmiş razılaşmaların Nikol Paşinyan tərəfindən qəbul edilməsi üçün səy göstərməlidir. İndi görünən budur ki, Paşinyan bunlara vadar edilir və onun bundan yayınmaq cəhdi sadəcə nəticəsidir"

"Çiçəklənən Ermənistan" fraksiyasından deputat İveta Tonoyan da Qarabağ məsələsində ölkəsinin ciddi zərbə aldığını vurğulayır və elə həmsədrlərin bəyanatının erməni tərəfi üçün narahatedici olduğunu buna əyani misal qismində göstərir. Onun sözlərinə görə, bəyanatda bir sıra bəndlər narahatlıq doğurur. "Məsələn, 2016-cı ilin Sankt-Peterburq və Vyana razılaşmaları arxa plana keçir. Azərbaycanda bu bəyanatı ruh yüksəkliyi ilə qəbul ediblər, elə bu özü çox şey deyir". Erməni əsilli amerikalı şərhçi Areq Qalstyan isə həmsədrlərin bəyanatında Dağlıq Qarabağın müvəqqəti statusunun və ətraf rayonların Azərbaycanın nəzarətinə qaytarılmasının münaqişənin nizamlanması üçün zəruri şərtlər kimi vurğulanmasını erməni tərəfi üçün böyük məğlubiyyət sayır: "Minsk Qrupu artıq açıq şəkildə müvəqqəti statusdan danışır, bununla İrəvanın mövqeyi də alt-üst olur".

Beləliklə, Paşinyan Azərbaycan rəhbəri ilə ilk rəsmi görüşünə "format dəyişikliyi" tezisi alt-üst olmuş şəkildə gedir. Liderlərin ilk rəsmi görüşünün bu formatda keçirilməsi də rəsmi İrəvanın bundan sonra "format dəyişikliyi" tezisi üzərindən çıxış etməsinin önünü birdəfəlik bağlayacaq. Bu, Azərbaycanın işğalçı ölkə üzərində növbəti diplomatik qələbəsi sayılmaqla yanaşı, Paşinyanın Qarabağ məsələsində sərsəm xəyallara düşməsinin də qarşısının alınmasında mühüm rol oynamaq iqtidarındadır. Çünki Ermənistan siyasi rəhbərliyinin danışıqlar prosesini və əldə edilən razılıqları iflic etməyə çalışmasına qarşı ortaya vasitəçi ölkələr tərəfindən kifayət qədər aydın, sərt mövqe qoyulub. Bunlar, şübhəsiz ki, Ermənistana qarşı kifayət qədər ciddi təpkilərdir. Öz növbəsində isə, Azərbaycan tərəfi Paşinyana indiyə qədər daha öncə verdiyi müəyyən bəyanatların yerinə yetirilməsi, danışıqlar prosesinin irəliləməsi və Ermənistanın işğalçı mövqeyindən əl çəkməsi üçün şans verib. Bu şansdan lazımi qaydada istifadə edə bilmədiyi təqdirdə, Paşinyan da ordumuzun gücünü görməli olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Dünyanın böyük hərbi gücləri sayılan ABŞ və Rusiya arasında gərginlik getdikcə artır. Müxtəlif bölgələrdə geosiyasi maraqları toqquşan bu ölkələr bir-birinə qarşı iqtisadi müstəvidə də problemlər yaratmağa can atırlar. ABŞ kəşfiyyatına yaxınlığı ilə tanınan "Stratfor" araşdırma mərkəzi yazır ki, tərəflərin qarşıdurmasının qarşıdakı dövr ərzində daha da kəskinləşməsini gözləmək olar:**

# ABŞ-Rusiya qarşıdurmasında Azərbaycanı daha möhkəm enerji mövqeyinə çıxaran amillər...




"Kiyevdə Avromaydanın - Ukraynada başlanan, amma bütün dünyaya təsiri olan üsyanın keçməsindən beş ildən çox ötüb. Üstəlik, o, Krımın Rusiya tərəfindən ilhaqını və ardınca Ukraynanın şərqində separatçı münaqişə törədib, bu üsyan soyuq savaş dönəmindən bəri münasibətləri belə pis olmayan Rusiya və Qərbin arasına paz vurub. Bu durumda Rusiya və NATO hərbi qüdrəti artırmaqla bir-birini acıqlandırıb.

Moskva uzun çəkişmələr nəticəsində xarici siyasət strategiyasını dəyişərək, bir yandan, iqtisadiyyatı sanksiyaların sonrakı təsirindən qorumaq, o biri yandan, ticari və yatırım məhdudiyyətləri illərində əldən buraxılan imkanların yerini doldurmaq üçün başqa bölgələrlə iqtisadi bağları xeyli müxtəlifləşdirməyə çalışıb. Çin bu baxımdan Rusiyanın əsas tərəfdaşı olub: Moskva 2014-cü ildən Brüssel və Vaşinqtonla iqtisadi münasibətlər çökəndən bəri Pekinlə ticari, iqtisadi və energetik əlaqələri getdikcə daha çox inkişaf etdirməyi sürdürür. Amma Çin Rusiyanın öz strateji və energetik ehtiyaclarını ödəməyə çalışaraq hərəkətləndiyi tək yön deyil. Rusiya və Qərb arasındakı gərginlik uzanacağından Rusiya Cənubi Asiya, Yaxın Şərq, həmçinin Afrika və Cənubi Amerikaya iqtisadiyyat və təhlükəsizlik sahələrində əlaqələri yoluna qoymaq mümkün olan bölgələr kimi yanaşır və bu qaydada ABŞ-ın planlarını pozur".

Bununla yanaşı, qeyd edilir ki, belə vəziyyətdə ABŞ iqtisadi müstəvidə Rusiyaya qarşı təzyiqlərini gücləndirməyə çalışır. Bu durumda ABŞ üçün əsas hədəflərdən biri "Şimal axını-2" layihəsidir. ABŞ-ın fikrincə, Avropanı Rusiya qazından asılı edəcək "Şimal axını-2" boru kəmərinin tikintisinə mane olmaq və bununla da Rusiyanın qitə üzərində siyasi təsirinin güclənməsinin qarşısını almaq vacibdir. Bunun üçün ABŞ "Şimal axını-2" layihəsinə yeni sanksiyalar tətbiq etməyə hazırlaşır. "The Wall Street Journal" qəzetinə ABŞ prezident administrasiyasındakı rəsmilər bildirib ki, Vaşinqtonun bu addımı "Şimal axını-2" layihəsi üzrə Rusiyanın əsas tərəfdaşı olan Almaniyada "NATO üzvünə qarşı təcavüz" kimi qiymətləndiriləcək.

Amerikalı rəsmilərin sözlərinə görə, "Şimal axını-2" layihəsinə qarşı sanksiyalar hazırda Rusiya əleyhinə qüvvədə olan məhdudlaşdırıcı tədbirlərə əlavə dəyişiklik kimi tətbiq olunacaq. Yeni sanksiyalar "Şimal axını-2" layihəsi üzrə qaz boru kəmərlərinin çəkilməsinə cavabdeh olan şirkət və investorlara qarşı yönələcək və bu, onların layihədə iştirakdan uzaqlaşdırılması məqsədi daşıyacaq. ABŞ təhlükəsizlik xidmətinin anonim əməkdaşı isə qəzetə bildirib: "Amerika prezidenti Donald Tramp hesab edir ki, "Şimal axını-2" layihəsi ABŞ-ın Avropa üzərində tutduğu hərbi qalxanla uyğunlaşmır". Bundan əvvəl isə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Con Bolton bəyan etmişdi ki, Avropa "Şimal axını-2" layihəsinə qarşı çıxmasa, Rusiyaya qarşı yeni sanksiyalar işə düşə bilər.

Xatırladaq ki, 1220 kilometr uzunluğundakı "Şimal axını-2" qaz boru kəməri Baltik dənizindən keçməklə Rusiyadan Almaniyaya ildə 55 milyard kubmetr qaz nəql etmək gücünə malik olacaq. Rusiyanın enerji nəhəngi "Qazprom" açıqlayıb ki, "Şimal axını-2" layihəsi 2019-cu ilin sonunadək başa çatdırılacaq. Baltikyanı ölkələr, Polşa və Ukrayna "Şimal axını-2" qaz boru kəmərinin tikintisinə qarşı çıxır. Bu ölkələr hesab edirlər ki, "Şimal axını-2" iqtisadi layihə deyil və Avropanın bütövlüyünə zərbə vurmağa hesablanıb. ABŞ da Almaniyanın Rusiya ilə "Şimal axını-2" qaz razılaşmasını imzalamasına qəti etiraz edir və iddia edir ki, bununla Avropanın Rusiyadan qaz asılılığı daha da artacaq. Vaşinqton ehtiyat edir ki, "Şimal axını-2" qaz kəmərinin təhlükəsizliyini bəhanə edərək, Moskva gələcəkdə Baltik dənizindəki hərbi mövcudluğunu gücləndirəcək. Bu durumda Avropa ölkələri arasında layihə ilə bağlı ikitirəlik də artır. Ekspertlər hesab edir ki, yaranmış vəziyyətdə Avropa digər mənbələrdən, əsas etibarı ilə də Azərbaycandan daha çox qaz almağa çalışacaq. Avropa Komissiyasının büdcə üzrə komissarı Günter Ottinger də bunu elə bu günlərdə təsdiq edib: "Azərbaycan qazının yaxın gələcəkdə Avropa İttifaqına çatmasını səbrsizliklə gözləyirik. 2019-cu ilin sonunda "Cənub Qaz Dəhlizi" layihəsinin qalan hissələrinin başa çatması gözlənir.

Azərbaycan qazı TANAP vasitəsilə artıq Türkiyəyə nəql edilir. Biz Azərbaycan qazının yaxın gələcəkdə Avropa İttifaqına çatmasını gözləyirik. Avropa İttifaqı "Cənub Qaz Dəhlizi" layihəsinin mümkün qədər tez tamamlanması üçün əlindən gələni edəcək. Bu dəhliz strateji əhəmiyyətə malikdir, çünki o, təkcə təchizat marşrutlarının deyil, həm də təchizat mənbələrinin şaxələndirilməsinə imkan verəcək".

***Nahid SALAYEV***

---

**Son vaxtlar İranda spirtli içkilərdən insanların zəhərlənməsinin artması ilə bağlı məlumatlar artır. Ölkənin müxtəlif bölgələrində bu kimi xoşagəlməz hadisələr baş verir. Bir müddət əvvəl İranın Bukan şəhərində spirtli içkidən zəhərlənən 13 adamdan ikisi həyatını itirib.**

# İranda nə baş verir - əvvəlcə Məşhəddə əxlaqsızlıq yuvası, sonra alkoholdan kütləvi zəhərlənmə, daha sonra...

## Elçin Mirzəbəyli: *”Düşünmək ki, bunun arxasında hansısa üçüncü qüvvənin təxribatı dayanır...”*



*”İlk baxışdan bizə qəribə görünür, amma bu kimi problemlər İranda var”*

Məlumata görə, İranda son altı ay ərzində 100 adam saxta spirtli içkidən zəhərlənərək həyatını itirib. Spirtli içkinin qadağan olduğu ölkədə bir çox evdə alkohol istehsal edilir. Ölkə qanunlarına görə, spirtli içki istehsal edən, alan və satan 6 aydan 1 ilə qədər həbs edilir. Məsələ ondadır ki, İranda 1979-cu ildə islam inqilabı baş verəndən sonra alkoholllu içkilərin istehsalı, satışı və istehlakı qadağan edilib.

Bu arada İranın Kürdüstan əyalətinin Banə şəhərində əldəqayırma yolla (kustar) hazırlanmış saxta spirtli içkilər faciəyə səbəb olub. Hadisə nəticəsində 23 nəfər zəhərlənib, 1 nəfər ölüb. Son həftələrdə İranın daha bir neçə bölgəsində, o cümlədən də Meşkinşəhr, Əhər və Bukan şəhərlərində yüzlərlə insan saxta spirtli içkilərdən zəhərlənib. Bir neçə nəfər isə ölüb.

Onu da qeyd edək ki, İranda digər xoşagəlməz hallar da yaşanır. Bir ay əvvəl ölkənin şərqindəki Məşhəd şəhərində 40 masajçı polis tərəfindən saxlanıb. Belə ki, sosial-ictimai şəbəkələrdə aparılan araşdırmadan sonra bir qrup kişi və qadın masajçının reklamları müşahidə olunub. Saxlananlar 22-32 yaşlar arasında olan gənclər olub. Məlum olub ki, onlar masaj adı altında əxlaqsızlıqla məşğul olublar.

İran İslam Respulikası olduğu üçün, burada islam qanunları önəmli rola malikdir. Ölkə Konstitusiyası islam qanunlarına əsaslanır. Yəni burada qanunlar dünyəvi quruluşa malik ölkələrdən fərqlidir. Belə olan halda, sözügedən halların yaşanması, istər-istəməz, müəyyən suallaların yaranmasına səbəb olur. İranda nə baş verir? Belə hallar təxribatdan qaynaqlanır, yoxsa İran cəmiyyəti ölkə qanunları ilə yaşamaq istəmir?

**Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə İranda belə halların baş verməsinin kökündə konkret hansı amillərin dayandığını birmənalı demək çətindir:** "Düşünmək ki, bunun arxasında hansısa üçüncü qüvvənin təxribatı dayanır, bu doğru olmaz. Fikirləşmək ki, bu, müasirliklə bağlı olan məsələdir, bu da doğru olmaz. Ona görə ki, spirtli içkidən istifadə dünyəviliyin və müasirliyin göstəricisi deyil. Dünyəviliyin göstəricisi olan faktorlar başqadır. Bu, ölkənin dünyəvi qanunlarla idarə olunmasıdır, insan hüquq və azadlıqlarının təmin edilməsidir və s. İlk baxışdan bizə qəribə görünür, amma bu kimi problemlər İranda var, baxmayaraq ki, ölkə islam qanunları ilə idarə olunur. Problem ondadır ki, İranda spirtli içkilərdən və narkotiklərdən istifadə kütləvidir. Bu kimi problemlər İran cəmiyyətinə də xas olan problemlərdir. Əslində, bunun özü də ola bilsin ki, müəyyən qədər, mövcud teokratik idarəçilik sisteminə olan etirazdır. Ancaq bu etirazlar sadəcə bu kimi problemlərin timsalında özünü büruzə vermir. Bir sıra digər faktorların timsalında da özünü büruzə verir. Məsələn, İranda tez-tez baş örtüyü ilə bağlı etirazlar ortaya çıxır. Bütövlükdə, teokratik rejimin idarəçiliyinə qarşı etirazlar özünü tez-tez büruzə verir. İslamın özündə belə, insanların zorakı metodlarla bu və ya digər ayini icra etməsi yoxdur. Ancaq İran buna əməl etmir. Ona görə də müvafiq qanunlar çərçivəsində insanlara seçim azadlığı verilməlidir. Nə qədər ki, bu yoxdur, ölkədə bir sıra problemlər həll olunmamış qalacaq".

***Vidadi ORDAHALLI***

# Bəzi dövlət təşkilatlarının hədiyyələr adı altında yol verdiyi israfçılığın inanılmaz mənzərəsi...

**Azərbaycanda dövlət büdcəsinə qənaət hakimiyyətin prioritetləri sırsına aiddir. Biz ölkə başçısının çıxışlarında da dəfələrlə bu məsələyə toxunduğunun şahidi olmuşuq. Hətta ölkə başçısı məmurlara dəbdəbəli ad günləri etməmək, bahalı xidməti avtomobillərdən istifadədən çəkinməklə bağlı konkret tapşırıqlar da verib.**



*"Dövlət qurumlarının bu tip xərclərinə dövlətin və ictimaiyyətin ciddi nəzarəti olmalıdır ki, hədiyyə adı ilə silinən vəsaitin hara və necə xərcləndiyini biləK"*

***İlqar Hüseynli:** "Necə ola bilər ki, Metropoliten kimi böyük kollektivi olan bir qurum hansısa xırda departamentdən bu məqsədlə az pul xərcləsin?"*

Ancaq təəssüflər olsun ki, biz əksər hallarda bu tövsiyələrə lazımi şəkildə əməl edilmədiyinin şahidi oluruq. Bu günlərdə dövlət büdcəsindən maliyyələşən təşkilatların son 2 ildə hədiyyələrin, suvenirlərin, hədiyyə paket, qutu və səbətlərinin və onların dizaynı işlərinin satınalmasına dair xərclərinin siyahısı ilə bağlı rəsmi dairələrin yaydığı hesabata baxmaq kifayət edir ki, dövlət qurumlarının hansı şəkildə israfçılıq etdiyini görəsən. Məlum olur ki, dövlət qurumları bu məqsədlə toplam olaraq 544 152 manat büdcə pulu xərcləyiblər. Hesabat dövründə bununla əlaqədar olaraq cəmi 30 satınalma həyata keçirilib. Cədvələ diqqət yetirdikdə digər maraqlı detallar da üzə çıxır. Məsələn, işçi kontingenti həddən artıq az olan bir qurumun hədiyyələr üçün xərclədiyi məbləğin, irihəcmli dövlət qurumları, hətta nazirlikləri belə üstələməsi olduqca anormal görünür.

Ən iri satınalmalar haqqında məlumatdan görünür ki, Bakı Şəhər İcra Hakimiyyəti Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamentinin bu istiqamətdə olan xərcləri hətta Fövqəladə Hallar Nazirliyini belə üstələyir. Hansısa qurumun tərkibində olan bir departament hədiyyələr üçün 49 min manat xərcləyibsə, FHN-in xərcləri 33243 manat olub. Dövlət Radiotezliklər adlı elə də böyük olmayan qurumun da hədiyyələr üçün ayırdığı məbləğ cədvəlin ön sıralarında yer alıb. 48485 manat xərcləyən bu qurum da hədiyyə almaq estafetində böyük nazirlikləri belə özündən arxada qoya bilib. Dövlət qurumlarında belə işlər üçün xərclərin nəzərdə tutulduğunu bilirik. Amma siyahıdakı disbalansı anlamaq olmur. Doğrudan da düşündürücüdür, əməkdaşlarının sayı digərindən bəlkə də 100 dəfələrlə çox olan qurumlar necə ola bilir ki, hədiyyə almaqda kiçik təsisatlardan arxada qalırlar? Bu nəyin əlaməti sayıla bilər?

**Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli qəzetimizə bildirdi ki, həmin siyahıya dərindən nəzər yetirmək şübhələrin meydana çıxmasına kifayət edir:** "Bu məsələdə korrupsiyanın olduğunu istisna etmirəm. Dövlət büdcəsindən israfla bağlı biz dəfələrlə məsələlər qaldırmışıq. Biz hər zaman müəyyən qurumların birləşdirilməsi ilə bağlı məsələni vurğulamışıq. Cənab Prezidentin verdiyi fərmanlara əsasən, bu istiqamətdə mühüm irəliləyişlər oldu. Bu islahatların ən başlıca hədəflərindən biri də institusional xərclərin azaldılmasıdır. Nəqliyyat vasitələrinə sərf olunan yanacaq, sürücülərin əməkhaqlarına nəzər yetirmək kifayət edir ki, israfın olduğunu görəsən. Hədiyyələrin alınması ilə də bağlı rəqəmlər böyükdür. Bunu istisna qurumlar edə bilər. Tutaq ki, Azərbaycanın diaspor fəaliyyətini həyata keçirən hansısa qurum belə hədiyyələr verə bilər. Tanınmış adamları ölkəmizə qonaq kimi dəvət edənlər ölkəmizin simvollarını hədiyyə kimi təqdim edə bilərlər. Ancaq biz siyahıda elə qurumların liderliyini görürük ki, doğrudan da təəccüblüdür. Hesab edirəm ki, bəzi qurumlar bunu əlamətdar günlərlə bağlı edə bilər. Amma yenə də siyahıda qeyri-müəyyənliyin olması bizi təəccübləndirməyə bilmir. Bu qədər vəsaiti hədiyyə adı altında sərf etmək doğru deyil. Necə ola bilər ki, Metropoliten kimi böyük kollektivi olan bir qurum hansısa xırda departamentdən bu məqsədlə az pul xərcləsin? Deməli, burada şübhəli məqamlar var. Artıq elə dövr gəlib ki, bunları açıq şəkildə söyləməkdən çəkinməməliyik. Təsəvvür edin ki, bəzən elə qurumlar olur ki, az bir əməkhaqqı ilə çalışan xadimənin adına böyük məbləğdə hədiyyə yazır. Burada bir məqsəd ola bilər, büdcədən pulu çıxarmaq. Dövlət qurumlarının bu tip xərclərinə dövlətin və ictimaiyyətin ciddi nəzarəti olmalıdır ki, hədiyyə adı ilə silinən vəsaitin hara və necə xərcləndiyini biləK".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın turizm strategiyası beynəlxalq yanaşmalar müstəvisində...

**Bu gün qeyri-neft sektorunda ən sürətlə inkişaf edən sahələrdən birinin turizm olması əldə edilən nəticələr fonunda özünü getdikcə daha qabarıq formada büruzə verir. Qeyd olunan sahədə əldə edilən nailiyyətlər dünya miqyasında da yüksək qiymətləndirilir. Məsələn, Ümumdünya Turizm Təşkilatının (ÜTT) yeni reytinq cədvəlində Azərbaycan turizminin inkişafına görə Avropa ölkələri arasında 7-ci yeri tutub.**



Qurum Azərbaycanda turizm sektorunun inkişaf dinamikasını yüksək qiymətləndirib. ÜTT Bakını ecazkar məkanlardan biri kimi təqdim edərək onu "Yeni Dubay"a bənzədib, neftlə zəngin ölkənin Avropa və Asiya arasında, o cümlədən Şərqdə sürətlə inkişaf edən qovşağa çevrildiyini bəyan edib. Belə vəziyyət, öz növbəsində, Azərbaycana turist axınını daha da artırır. Xüsusən də Novruz bayramı ərəfəsində ölkəyə turist axınında yeni artım müşahidə olunur. Hətta İran vətəndaşlarının ölkəmizə səfərlərini təşkil etmək üçün bu ölkədəki turist firmaları rəqabət aparmağa başlayıb. Belə ki, Tehranda fəaliyyət göstərən "Tours. select" və "Offer.select" portallarının "İnstagram" platformalarında Azərbaycan haqqında videoçarx yerləşdirilib. Videoçarxlarda Bakı və Azərbaycanın turizm məkanları əks olunub. Çoxsaylı izləyicisi olan platformalarda yerləşdirilən videoçarxlar böyük marağa səbəb olub. Bayram ərəfəsində bir çox ərəb ölkələrindən də Azərbaycana turist axını qeydə alınır.

Hazırda Azərbaycanın əsas hədəflərindən biri böyük əhali sayına malik Hindistan və Çin kimi ölkələrdən də ölkəyə turist axınını təşkil etməkdir. Azərbaycan Turizm Assosiasiyasının (AzTA) İdarə Heyətinin sədri Nahid Bağırov bu xüsusda qeyd edir ki, artıq cari ilin may ayından etibarən Hindistanın Mumbay və Dehli şəhərlərindən Bakıya birbaşa aviareyslərin həyata keçirilməsi nəzərdə tutulur. Onun sözlərinə görə, sözügedən uçuşları Hindistanın "İndigo Airlines" şirkəti yerinə yetirəcək.

Çinin Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycanın Dövlət Turizm Agentliyi arasında isə çinli turistlərin Azərbaycana qrup səfərlərinin sadələşdirilməsi haqqında Anlaşma Memorandumu imzalanıb. Xatırladaq ki, Çin xaricə gedən turistlərin sayına görə dünya lideridir. Qlobal turizm dövriyyəsinin təxminən 15 faizə yaxını çinli turistlər tərəfindən təmin edilir. Bu fonda ölkəmizə üz tutan çinli turistlərin sayında da artım qeydə alınır. Ümumiyyətlə isə, turizm potensialının tam realizə edilməsi məqsədilə həyata keçirilən tədbirlər öz nəticəsini verir və Azərbaycana maraq göstərən turistlərin sayı sürətlə çoxalır. Tikilən yeni və müasir otellər, çəkilən dünya standartlarına uyğun yollar, bir sözlə, qurulan infrastruktur Azərbaycanı xaricilər üçün daha da cəlbedici edir. Bundan başqa, beynəlxalq miqyaslı tədbirlər də burada öz rolunu oynayır. məsələn, gələn ay keçriləcək "Formula-1" yarışı Azərbaycana turist axınının çoxalmasında vacib əhəmiyyət kəsb edir. İndiyə qədər keçirilən bu yarışlar fonunda isə ölkəmiz 277,3 milyon dollar gəlir əldə edib. Bu məbləğin 164,2 milyon dolları birbaşa gəlirlərdir. Onun 22,7 milyon dolları turizm, nəqliyyat və otellərin payına düşür. Yarışların başlanmasına hələ 1 aydan çox vaxt qalmasına baxmayaraq, hazırda paytaxt otellərinin 90 faizi tutulub. Bu qəbildən olan tədbirlərin turistlərin cəlbində mühüm rol oynamasını isə Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, Dövlət Dumasının deputatı Dmitri Savelyev də təsdiq edir. O, Azərbaycana üz tutan rus turistlərinin say artımını şərh edərkən bu xüsusda vurğulayır: "Azərbaycan müsbət mənada təəccübləndirməyi bacaran ölkə kimi tanınır. "Eurovision", Birinci Avropa Oyunları, qısa bir vaxtda dünyada ən mühüm hadisələrdən birinə çevrilən Bakı Beynəlxalq Humanitar Forumunu xatırlayaq. Azərbaycan tədbirlərin yüksək təşkilatçılığı bacarığı ilə məşhurdur. Buna əlavə olaraq, bu ölkənin qeyri-adi və çox maraqlı, şərqlisayağı parlaq, özünəməxsus və heyranedici mədəniyyətini də qeyd etmək lazımdır".

Bununla yanaşı, turistlərin cəlbi üçün digər layihələrin də reallaşdırılması həyata keçrilir və məqsəd ölkəmizi dünyada Qafqazın ən cəlbedici turizm regionuna çevirməkdir. Bu proseslərin həyata keçirilməsinin nəticəsi olaraq 2023-cü ilin sonuna qədər Azərbaycana gələn turistlərinin sayının 4 milyona çatdırılması nəzərdə tutulur. Hazırda yalnız Bakı deyil, ölkənin digər bölgələrində də yeni infrastruktur layihələri həyata keçirilir. Əsas məqsəd Azərbaycandakı turizm regionlarına daha çox turist cəlb etməkdir. Belə vəziyyətdə turizm sahəsinin inkişaf etdirilməsi qeyri-neft sektorundan gələn gəlirləri artırır, ölkənin iqtisadi potensialını möhkəmləndirir. Bu sahədə infrastrukturun və xidmət sektorunun vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın dünyada tanıdılması yönündə aparılan ardıcıl işlər, o cümlədən viza sisteminin sadələşdirilməsi də qarışdaya qoyulan məqsədə daha asan şəkildə çatmağa imkan verir.

***Tahir TAĞIYEV***

# Ə.Vəzirova açıq məktub

**Mən indi Sizə nə məktub yazmaq istərdim, nə də günahlarınızla bağlı kiməsə müraciət etmək. Respublika rəhbərliyinin başında dayananda - qılıncınızın dalı da, qabağı da kəsəndə Sizlə görüşməyə, adımı rəsmi və ya qeyri-rəsmi qəbullarınızın siyahısına saldırmağa, həndəvərinizdə fır-fır fırlananlarınızın yadına düşməyə cəhd eləməmişəm. Mərkəzin təyinatını alıb Bakıda fəaliyyətə başladığınız ilk günlərdəcə təşkil etdiyiniz mitinqdəki çıxışınızı dinləyəndə əlim yerdən-göydən üzüldü, inandım ki, millətin başı üstünü qara buludlar alır.**

Siz ilk "monoloqunuzdanca" millətin fikrini o günlərin dəhşətli ağrılarından, elan olunmamış erməni müharibəsindən, Mərkəzin daşnaksayağı himayədarlığından, Qarabağdan, sərhədlərdən, qaçqınlardan "ayırıb" keçmişin təftişinə, təzə xiyar-pomidor "problemi"nə, köhnə dostunuzun vaxtilə işdən çıxarılması məsələsinə qatmaq istəyirdiniz. Bir-birinə calanan sonrakı acı hadisələr - iyirmi aylıq taxtınızın törətdiyi faciələr təsdiq elədi ki, zənnimdə yanılmamışam. Yazılarım Sizin əliniz altındakı hərbi senzuranın qadağalarını yarıb keçəndə mətbuatda çap olunub. Hətta bir müşavirədə məclis əhlindən qəfilcə soruşubsunuz: "Mı kak mojem nemnojko rasslabit Qidayata?" Kimsə: "On v posledneе vremya molçit" - deyib. Siz yenə əsəbiləşmisiniz : "Eqo molçaniye toje opasno!".

Qəzet redaktorları telefon söhbətində, ya görüşlərimizdə deyirdilər: "Fikirlərin ürəyimizdəndir, bircə MK-dan icazə verələr, heç olmasa, şöbə müdiri..."

Yanvar soyqırımından sonrakı yazılarımda isə dönə-dönə demişəm: kimdir günahkar? Ə.Vəzirov "Mərkəzin" sessiyasında (SSRİ Ali Sovetinin sessiyası nəzərdə tutulur - red.) oturub nə yazıbpozur görəsən? Bəlkə həqiqəti heç olmasa indi aça? Soruşmuşam, Sizdən də ... Ə.Daşdəmirovdan da (televiziyadakı "tarixi" bəyanatını hamı xatırlayır, özü də iki il sonrakı "redaktəsi", "Takix namereniy o tom, çtobı vvodit komendantskiy ças v Baku u rukovodstva respubliki net" - kimi yox, sadə və konkret - "V Baku ne budet komendantskoqo çasa" kimi) soruşmuşam. Məndən başqa da bu sualı verən çox olub, iki ildən çoxdur cavabını gözləyirlər, neçə gün bundan qabaq Siz ekranda görünəndə (Daşdəmirov da axır ki, həmin verilişdə peyda oldu) fikirləşdim ki, heç olmasa bu dəfə "Mərkəz hücumçusu" maskasını yırtıb, formal da olsa, səmimi danışmağa çalışacaqsınız.

***

Söhbətinizin əvvəlindəcə deyəndə - Şəhidlər Xiyabanında, baş daşlarında bircə tanış ad, bircə tanış şəkil görməyibsiniz, - hansı simə vurdunuz, aydındır, amma deyəsən, Siz də inanıbsınız ki, tamam günahsız adamlar şəhid olub və bu günahsızlar içində günahkarlar axtarırdınız? "Rəqib" tərəfdə, Xalq Cəbhəsində, o vaxtlar yaranmış təzə partiyalarda və qurumlarda, sözün düzünü az-çox üzünüzə deyən ziyalılar içindəmi gəzirsiniz günahkarları? O müsibətdə çoxlarının günahı var. Buna sözüm yox, bəs baş günahkar kimdir? Heç olmasa etiraf edəydiniz ki, o Xiyabanda bircə nəfər hökumət adamı, vəzifələrə təyin etdiyiniz onlarca səbatsız kəslərdən, onların oğul-uşaqlarından, doğmalarından, yaxın qohumlarından (hamısının canı sağ olsun, mən faktdan danışıram) bircəsi də yoxdur, onda "rəqib" tərəfi qınamağınıza təbii baxmaq olardı.

Yenə 1988-ci ilin ortalarında Bakıya gəlişinizi, ekoloji, iqtisadi problemləri, işsizliyi... xatırladınız, mənə elə gəldi təxminən dörd il bundan qabaq o vaxtlar Leninin adını daşıyan meydandakı çıxışınızın mətnini yenidən təkrar oxuyursunuz, indicə cənab "politbüro"dan, "tovariş Qorbaçov"dan sitatlar deyəcəksiniz. Sonra yenə iqtisadi məsələlərə qayıtdınız, "demə", 1989-cu ilin yayında SSRİ Dövlət Statistika Komitəsinin məlumatınca, Azərbaycan ölkədə meyvə və tərəvəz istehlakına görə... 14-cü yerdə imiş, Siz də hökm edib respublikadan çıxan yolları bağlayıbsınız, guya bazarlarda qiymətlər aşağı düşüb. Və məhsulu respublikadan çıxarmağa vərdiş etmiş kişilər bəyanat veriblər: "Mı oplatim skolko uqodno, Vezirov ne doljen ostatsya do sleduyuşeqo leta". (Vəzirovun bəzi ifadələri çıxışının orijinalında olduğu kimi saxlanır - red.)Təəccüblü bir "qiymət" də dediniz - bu qiyməti Sizin başınıza kimin qoyduğunu sirr saxladınız, amma rəqəmi bildirdiniz: 300 milyon... Hə, Siz doğrudan da gələn yaya qala bilmədiniz, bəlkə o tacir kişilər törətdilər Yanvar müsibətini?



Siz həqiqətən bu qədər sadəlövhsünüz, yoxsa oynayırsınız? Respublika rəhbərinin, üstəgəl diplomatın belə sadəlövh olmasına kim inanar? O ki qaldı oyuna... mən nə az, nə çox, düz on altı il peşəkar teatrda rəhbərlik etmişəm, pyeslər yazmışam, Şekspiri dilimizə çevirmişəm... Sizin oyununuzu şit komediyalardakı şit personajların ifaçıları ilə müqayisə etmək olar.

Yeri oldu-olmadı "moy narod", "moy narod" deyə-deyə Sumqayıtı, sonra (?) Əsgəranı, "zaxvat vlasti... v Lenkorane", Cəlilabadı, Cənubla sərhəddəki "neslixannıy vandalizm..." i, "srıv zasedaniya Verxovnoqo Soveta"nı, "mitinq Soveta oboronı", müxalifətlə gecə yarıdan xeyli keçənədək oturub şöhbətləşdiyinizi dönə-dönə xatırladınız, demək istəyirdiniz ki, 20 Yanvar müsibəti "təbii" idi? Bəs kim xalqı o dəhşətli qırğından xəbərdar etməliydi? Müsibətdən neçə gün qabaq zavoddakı görüşünüzdə o nə "silahlanma" tezisiydi atmışdınız meydana?

"Sentr vinovat? A seyças?"

Çox hərləndiniz bu sözlərin ətrafında. Mərkəzə bircə kəlməlik qınam, tənqid eşidilmədi... Bəlkə Siz də Yazovun yanvarın 18-dən 19-na keçən gecə Bakıya gəlişindən xəbərsiz idiniz? Və necə oldu ki, bütün Azərbaycan çalxanan dənizi xatırlatsa da, Siz Qorbaçovla danışmadınız?

Siz qətiyyən sadəlövh adam deyilsiniz. Azərbaycanın düşmənlərinin əliylə yazılmış ssenarinin mahir iştirakçısısınız. Siz doğrudan da sadəlövh adam olsaydınız, heç olmasa, aradan iki il keçəndən sonra müsibətin kökünü, yuxarıdan verilən konkret tapşırıqların, həndəvərinizdən gələn tələblərin ucundan-qulağından nəsə açardınız, arınmaz-arınmaz "Günahkarlar axtarmayın, hamı günahkardır" - deməzdiniz. Və ən dəhşətlisi budur ki, heç olmasa, peşmanlıq da keçirmirsiniz. Yox, Siz heç nəyi aça bilməzdiniz, məsələn, deyə bilərdinizmi ki, ordu çağırılması barədə Mərkəzə şifroqramma verməyibsiniz? Deyə bilməzdiniz. Ona da "Qorbaçov" deyərlər. SSRİ xalq deputatlarının qurultayında Tbilisi faciəsinə baxılması Sizin gözləriniz qabağındaca olub, Gürcüstan KP MK-nın keçmiş birinci katibi Patiaşvili bildirəndə ki, 9 apreldə Tbilisinin küçələrində tökülən qanlardan xəbərsiz imiş, Qorbaçov onun öz imzasıyla Sov.İKP-yə göndərilmiş teleqramı (komendant saatı elan olunması xahişini) gətizdirib xalq deputatlarına oxutdurdu və bunu televiziya vasitəsilə bütün keçmiş nəhəng imperiya gördü. Ona görə də... Girenkonun, Yazovun, Mixaylovun... heç adını da çəkmirsiniz, sözünüzün də əvvəli-axırı - "günahkarlar axtarmayın, hamı günahkardır".

Doğrudanmı yanvarın 16-dan 18-dək rəhbərlik etdiyiniz büro bu məsələylə bağlı yığışmayıb, vəziyyəti müzakirə etməyib, tədbirlər planı hazırlamayıb və bu barədə Moskvaya müvafiq məlumat verməyib, müvafiq xahiş eləməyib, kömək istəməyib? Bəlkə bu işi Ali Sovetin Rəyasət Heyəti öz üzərinə götürüb? Bəlkə hər şeyi Siz özünüz öz iradənizlə təkbaşına həll edibsiniz? Burda da sual çoxdur, amma bir şey mənə gün kimi aydındır: sizlərdən müraciət olmasaydı, Qorbaçov Azərbaycana başkəsənlər ordusu yeridə bilməzdi. Əgər Siz kömək istəməyibsinizsə və ya fövqəladə vəziyyətin əleyhinə olmusunuzsa, niyə respublikanın müxtəlif təşkilatları adından müraciətləri yığırdınız? Deyəcəksiniz ki, o vaxtlar Bakıda hər hansı bir iri müəssisənin rəhbərliyi, ictimai təşkilatları MK-nın və ya raykomun tapşırığı olmadan yuxarılara müraciət edə bilərdi ki, şəhərdə hərbi vəziyyət elan edin? Buna inanan tapılarmı?

Siz qaçqınları da xatırladınız, guya müxalifəti o zavallıların problemlərilə birgə məşğul olmağa çağırıbsınız. O zavallıları ki, Sizin tapşırığınızla, raykom katiblərinin hökmüylə doğma Azərbaycandaca neçə kənddən, neçə eldən qovuldular, axırda neçə milis, DTK səddini keçib Bakıya üz tutdular, oradan da qovuldular. Sonra yenə geriyə, sonra yenə, yenə...Zəngilandakı görüşünüz yadınızdadımı? Bu yaxınlaracan amansız düşmənə qabağında mərdanə dayanan Nüvədi kəndinin poçt müdiri şikayətlənəndə ki, poçtumuz gəlmir, işığımızı kəsirlər, maaşımızı ala bilmirik, ərzaq...yoxdur... Nə desəniz yaxşıdır? "Sizə şad xəbər vermək istəyirəm. Bakıya beş min erməni qayıdıb..." Elə o qaytardığınız ermənilər sonralar çox faciələr törətdilər. Bakıda da, Azərbaycanın hər guşəsində də. Elə o qaytardığınız ermənilərin gücüylə Volski Qarabağ dağlarında daşnak hökumətini möhkəmlətdi, faciələr faciələrə calandı, yerdə də qan töküldü, göydə də. Azərbaycanlılar doğma Qarabağdan ölümlə qovuldular, isti ocaqlarından didərgin düşdülər, 13-15 yanvar hadisələrinin ertəsi günü isə öz əlinizlə törətdiyiniz cinayətlərə siyasi qiymət verməyə cumdunuz, büronuzun qərarını çıxarıb, bütün günahları ö zavallıların üstünə yıxdınız.

*(Ardı 9-cu. səh)*

*(Əvvəli 8-ci. səh)*

Bu qərarı çıxarmaqda əsas məqsədiniz yeni cinayət törətmək idi: yerli əhali ilə qaçqınlar arasında nifaq salmaq, qardaş qırğını törətmək. Bu yolla "şanlı" ordunun şəhərə girməsinə "ciddi" bəhanə tapmaq.

Bakıdan qaçmağınız isə... gülməli yuxulu nağıllara oxşayır: yanvarın 18-dən 27-dək "heç nə yadınızda deyil, yanvarın 18-də günorta xəbər veriblər ki, "Politbüro" Sizi işdən kənarlaşdırıb, diplomatik "karyera"nızın davamı üçün XİN-nə dəvət eləyib.

Axşam saat 11-in yarısınadək MK-da olubsunuz.

Sonra... "heç nə yadınızda deyil".

Yanvarın 27-də ayılıbsınız. Moskvada, ayrı məmləkətdə, aydın deyil, bəlkə də ayrı şəhərdə? Yoxsa ağır stress keçirdiniz, şok vəziyyətinə düşübsünüz? Vəzifədən ayrıldığınız, yoxsa əlinizlə törədilən soyqırımı üçün? O da aydın deyil.

Bəs doğmalarınız, dostlarınız da Bakıdan nə vaxt, necə aparıldığınızı Sizə söyləmədilər?

Görürsünüzmü, yuxulu nağıllar kimidir, gülməli nağılların qəmli sonluğutək.

Ən qatı cinayətkarlar da, içlərində zərrə qədər qeyrət, namus hissi varsa, xalq məhkəməsində günahlarını etiraf edirlər, törətdiklərini açıb-ağardırlar. O dəhşətli soyqırımından iki il keçəndən sonra da günahlarının yüzdə birini boynuna almayasan, milyonlarla tamaşaçılara üz tutub deyəsən: necə getdiyim yadımda deyil, yanvarın 18-də yatıb, 27-də oyanmışam...

"Moy narod" ifadəsi səmimiyyətlə deyiləndə "mənim evim", "mənim ocağım", "mənim oğul-uşağım" kimi səslənir və bundan uca and yeri yoxdur. Belə ağ yalanları, multiplikasiya filmləri qəhrəmanlarının gülməcələrini xatırladan "monoloqunuzu" dinləyəndə fikirləşirsən: ulu tarixi boyu heç kəsi aldatmayan, düz sözü, düz əhdi müqəddəs sanan, qılınc qabağında da xəyanət eləməyən, mərdliyi qoca Şərqi heyrətləndirən bu qeyrətli millət doğrudanmı Sizin xalqınızdır?

***

Qorbaçov Sizi gecəyarı Pakistandan gətirdib Azərbaycana rəhbər təyin edəndə həqiqətən ağır vaxtlar başlamışdı. Amma məni bir məsələ çox düşündürür: iyirmi il respublikadan ayrılmış, arada gəlib bir şəhərə rəhbərlik eləyə bilməyən adam nəyə arxalanıb, hansı prinsipləri əsas götürüb elə ağır yükün altına girdi? Əsas məqsədiniz nəydi? Qarabağ uydurmasının aşkarlanmasımı? Yoxsa qaçqınlar problemi? Bəlkə iqtisadiyyat? Yox. Siz əslində nə Qarabağın qorunmasıyla məşğul oldunuz, nə qaçqınlarla, nə də iqtisadiyyatın inkişafıyla. Gündə bir tezis atıb meydana - arxasında gizləndiniz: qoz ağacı əkmək, kompyuterləşdirmək, hamam tikmək. Bəs Qarabağ? Volski hökumətini kim yaratdı Azərbaycanın bu dilbər guşəsində? Ermənin əlini sıxan bu canişini kim SSRİ-nin xalq deputatı elədi? Bu gün deyə bilərsinizmi onun seçilməsinin təşkili üçün həmin dairəyə düşən azərbaycanlılar yaşayan rayonların, kəndlərin rəhbərlərinə xüsusi tapşırıq verməyibsiniz, deyə bilərsinizmi? Bəs Balayanın? Bu seçkidə Sizin barmağınız yoxdur? Bəs seçkiqabağı bir qrup adamınızı həmin dairəyə - azərbaycanlılar yaşayan məntəqələrə niyə göndərmişdiniz?

Qarabağla, qaçqınlarla, respublikanın başqa problemlərilə ciddi "məşğul olan" rəhbər iyirmi ayda yüzlərlə nomenklatur işçisini işdən çıxarmağa necə macal tapa bildi? Axı, o qədər adamı da təyin etmək lazım idi. Siz bu adamların fəaliyyətini, şəxsiyyətini harda öyrənmişdiz? (İşdən çıxarılanların da, yeni təyin edilənlərin də.) Harada, haçan? Hindistanda, Nepalda, Pakistanda işləyəndəmi? Ümumiyyətlə, məncə, kadr "siyasətinizdə" başlıca xətt yüksək vəzifələri Sizdən əvvəlki rəhbərliklər tərəfindən işdən qovulmuş adamlara (özləri yaşamırsa, onların uşaqlarına və ya yaxın adamlarına), özü də ağına-bozuna baxmadan paylamaq, kimlərdənsə qisas almaq, köhnəli-təzəli korrupsiya yaratmaqdan başqa bir şey deyildi.

Ölkə rəhbərləri hansı halda, hansı şəraitdə Vətəndən qaçırlar görəsən? Düşmən ordusu ölkəyə girəndən neçə gün, neçə saat qabaq? Və ulu tarix boyu başqa belə bir dəhşətli fakt qeydə alınıbmı?

Müxalifətlə görüşlərinizdən çox dəm vurursunuz, o söhbətlərdə əsas məqsədiniz nəydi - xalq hərəkatını parçalamaqmı? 1988-ci ilin noyabr-dekabr hərəkatında biz bunun şahidi olduq, necə dəhşətli böhtanlar yayırdılar Meydana, çadırlara. Aclıq elan edən gənclərin "saatda" ayaqyoluna neçə kərə "getdiklərini" də "saymışdınız" və bunu Siz özünüz televiziya ilə aləmə car çəkirdiniz...

Və axırıncı sözüm: bu xalqın doğrudan da yer boyda ürəyi var; torpaq kimi səbri var - izin verib Siz müqəddəs Şəhidlər Xiyabanına ayaq basıbsınız. Görəsən, heç olmasa orada, əbədiyyətin zülmü ayaqladığı torpaqda içinizin lap dərin guşəsində ağlasığmaz cinayətlərinizi, bağışlanmaz günahlarınızı xatırladınızmı?

**"Yeni fikir" qəzeti, 23 yanvar 1992-ci il.**

**P.S.: ŞƏR QAZANI**

Açıq məktubun yazıldığı, çap olunduğu zamandan 27 ildən artıq vaxt keçib. Yazılmasına səbəb 20 Yanvarın ikinci ildönümü hüznündə müsibətdən sonra ilk dəfə televiziya ekranında görünərək, bu açıq ittihamda göstərildiyi kimi, absurd, ağlabatmaz, gülməli-ağlamalı fikirlər söyləməyiniz idi. Narahat ovqatla yazılmış o sətirlər o illərdə çox oxundu, sonralar kitablarıma daxil edildi. Artıq məndə təzəcə unudulmağa başlayırdı, çünki bu müsibətin mahiyyətini, Siz başda olmaqla günahkarlarının adlarını, ünvanlarını tarix özü açmışdı və açırdı. Haçansa açıq məktubu qəzetdə yenidən dərc etdirəcəyim (özü də sözardıyla) ağlıma gəlməzdi, əgər yeni cəfəngiyat - "Paxlava Production" internet televiziyasında saat yarımlıq şərlər, yalanlar, böhtanlar, lap başlıcası, xalqımıza, yumşaq desək, hörmətsizlik deyimləri ilə doldurulmuş yeni müsahibəniz peyda olmasaydı.

Heç dəyişməyibsiniz, azı 27 il bundan qabaqkı ovqatınızdasınız - "Lenin komsomolunda" işləməyinizlə fəxr edirsiniz, siyasi ideologiyalı dövlətin xiffətini çəkirsiniz, eliniz Fuzulini hələ də "Karyagin" sayırsınız. Siyasi Büronun "məlum" üzvlərindən fərqli olaraq, Sov.İKP üzvü biletini atmadığınızı, ömrünüz boyu saxlayacağınızı, axırda arxivə təhvil verəcəyinizi fəxrlə bəyan edirsiniz.

Lap təəcüblüsü budur ki, otuz ildən artıq davam edən torpaqlarımızın düşmən zəbtinin "səbəblərini" işğalçı ölkədə hakimiyyət uğrunda gedən mübarizədə görürsünüz.

Özünüzü quruya çıxarmaq üçün kimə desən şər atırsınız, yalan danışırsınız, hamıya məlum olan adi faktları təhrif edirsiniz. 20 aylıq "hakimiyyətiniz" dövründə də belə çalışırdınız. Açıq məktubdan az sonra çap olunmuş "Əgər səlahiyyətin yoxsa..." adlı müsahibəmdən sətirlər düşür yadıma: "Milli dünyagörüşün, özünüdərk proseslərinin ritmini pozmaq, xüsusilə Azadlıq hərəkatını təxribatlar yolu ilə boğmaq üçün...Vəzirov... kimi rəhbər lazım idi. Moskvaya belə kadr... gərəkdi! Bu rəhbər... Moskvanın siyasətini üç istiqamətdə aparırdı... Birincisi - çalışırdı ki, nəyin bahasına olursa-olsun, Qorbaçovun və onun antiazərbaycan, daşnakpərəst siyasətinin iç üzünü bilən Heydər Əliyevin reytinqini aşağı salsın, onu böyük siyasət meydanına yaxın buraxmasınlar. Qorbaçovun Siyasi Büro yoldaşı imperiya üçün niyə belə təhlükəliydi? Ona görə ki, siyasi çevikliyi, zəngin təcrübəsi, güclü məntiqi ilə o illərin Siyasi Bürosunda fərqlənən bu dərin zəkalı adam ciddi çətinliklər şəraitində özünü yenidən göstərər, hadisələri başqa səmtə yönəldə bilərdi. Bütün hallarda Qarabağ ermənilərə verilməz, sərhədlərimiz pozulmazdı. İkincisi - Heydər Əliyev elə bir şəxsiyyətdir ki, Qorbaçovla, Yeltsinlə... üzbəüz oturub onları susdura bilər, beynəlxalq aləmdə ifşa eliyərdi. Və o da təsadüfi deyil ki, böyük siyasətdən zorla uzaqlaşdırılmış Heydər Əliyev Brejnev - Qorbaçov Siyasi Bürosunun ilk üzvüdür ki, son imperatorun iç üzünü neçə il bundan qabaq açıb. (Liqaçov və başqaları hələ indi-indi açırlar).

Üçüncüsü - real, böyük qüvvə olan Xalq hərəkatını nəyin bahasına olursa-olsun parçalamaq, nüfuzdan salmaq, hərəkatla Heydər Əliyev qarşıdurmasını təşkil etmək, yaxud "eyniləşdirmək" (daha çox eyniləşdirirdilər). Sov. İKP MK-da Vəzirov yayırdı ki, guya Əbülfəz Əliyev Heydər Əliyevin əmisi oğludur... Qarşıdurmada da, eyniləşdirmədə də məqsəd hər ikisini zəifləmək, xalqın gözündən salmaq idi. Bacarmadılar. Təkrar edirəm : Xalq müdrikdir!"

**"Aydınlıq" qəzeti, 10 iyul, 1992-ci il.**

Yadınızdadırsa, açıq məktubu yazanda da, bu müsahibəni verəndə də mən siyasi, ya diplomatik vəzifə daşımırdım, "Gənclik" nəşriyyatının baş redaktoruydum. Vətəndaş kimi, qəlbimin harayına dözməyib açıq məktubu, o illərin ağır problemlərindən bəhs edən digər çoxsaylı məqalələri qələmə aldım, bu mövzuda müsahibələr verirdim.

Ata-baba yurdlarından didərgin düşmüş soydaşlarımıza yeni böhtanlar atırsınız. Guya onları Qarabağa aparmaq üçün ayrıldığınız avtobusa (?) bircə nəfər də qaçqın minməyib. Mən o illərdə də yazmışam, çap olunub: Qərbi Azərbaycandan olan qaçqınların məramı Yuxarı Qarabağda yerləşmək idi. Onlar birmənalı bildirirdilər: "Biz yalnız ora getməliyik! Yarımız qırılıb, Qarabağı xilas etmək istəyirik! (Bunu özümüzün şərəfimiz, vəzifəmiz sayırıq)." Siz imkan vermədiniz. Xalq hərəkatını aşağılamaq niyyətiniz yenə də özünü gizlətmir. Hələ də qəbul edə bilmirsiniz ki, 1988-1990-cı illərdə küçələrə çıxan, digər meydanlara toplaşan yüz minlərlə vətəndaşımızın məramı Azadlığa qovuşmaq, Qarabağı xilas etmək və Sizin antiazərbaycan siyasətinizə son qoymaq idi.

Deyirsiniz, "əgər mitinqçilərə gündə 25 manat ödənilməsəydi, onlar hərəkatı dəstəkləməzdilər". Mən o mitinqlərdə hər gün 3-5 saat olmuşam. Mənə də 25 manat ödənilib? Minlərlə ziyalı, tanınmış, ləyaqətli insan, qeyrətli vətəndaşlar görmüşəm orda. Onlara da ödəyiblər? Siz belə böhtanlar yağdırmaqla bütün xalqımızı təhqir edirsiniz.

Köhnə absurd "tezislərini" yadımızdan çıxmayıb. 1969-cu ildən başlayaraq səksəninci illərin əvvəlindək ölkəmizdə aparılmış nəhəng quruculuq işlərini hələ də "görə bilmirsiniz". "İstintaq" filmindən söz düşməsi də Sizi ayıltmır. "Leninin komsomolunda", diplomatiyada ən yüksək vəzifələr tutmuş yeganə azərbaycanlı olmağınızdan dəm vura-vura laqeydcəsinə bildirirsiniz ki... guya o filmə baxmayıbsınız. Elə bir kəndli, fəhlə, sadə "Lenin komsomolçusu" tapılarmı o filmə baxmamış olsun? O filmin nəhəng ölkənin ən yüksək dəyərini - SSRİ Dövlət mükafatı alması da "birinci Lenin komsomolçusunu", "birinci diplomatı" maraqlandırmayıb?! Bu, məsələnin bir tərəfi! Digər əsas tərəfi - 20 aylıq hakimiyyətində ölkənin məlum iki böyük regionundan olan kadrların yaxşısına, pisinə baxmadan hamısını (istər paytaxtda, istərsə də rayonlarda) ikinci, üçüncü, hətta dördüncü dərəcəli vəzifələrdən də son nəfərinədək azad edən, bu bölgələrdən olanların dövlət aparatında ən aşağı dərəcəli işçi götürülməsinə imkan verməyən şəxsin guya özündən əvvəl mövcud olmuş "klanlardan", "korrupsiyadan" dəm vurmağı, çox yumşaq desək, acı gülüş doğurur.

Böyük qardaşınız M.Qorbaçov, onun həndəvərindəkilər barədə bircə kəlmə də olsun tənqidi fikir söyləməməyinizin "sirri" həm açıq məktubda, həm də sözardında var. Böyük qardaşınızın dilindən yalan söyləmiyiniz də məni təəccübləndirmir: "Hələ 1985-ci ildə Qorbaçov mənə Azərbaycana rəhbərlik etməyi təkif etmişdi". Ağ yalandır! 1985-ci ildə K.Bağırov üç ildən də az idi ki, Azərbaycana başçılıq edirdi. O dövrdə respublika rəhbərlərini belə tez dəyişmirdilər. K.Bağırovu təcili əvəzləməyə ehtiyac da yox idi. O da Qorbaçovun tapşırıqlarını yerinə yetirirdi (Sizin kimi xalqını dəhşətli qırğına verib aradan çıxmasa da). 1985-ci ildə Azərbaycana rəhbər gəlmək istəyiniz öz səbatsız, dağıdıcı, məntiqsiz "islahatlarını", artıq hazırlamaqda olan Qarabağ xəyanətinin "layihəsini" həyata keçirməkdə ona ciddi mane olan dahi dövlət xadimi Heydər Əliyevi böyük siyasətdən uzaqlaşdırmaq təxribatında böyük qardaşınız Qorbaçova yardımçı olmaq məqsədi daşıyırdı! Yalnız şəxsən Sizin arzunuz olub. Ermənistanın müharibəsini, 20 Yanvar müsibətini beş il qabağa salmaq üçün?

Müsahibənin sonunda 2004-cü ildə Prezident İlham Əliyevin yanında Azərbaycan ensiklopediyasının nəşri ilə bağlı keçirilmiş müşavirədən Sizə aid epizod xatırlanır. Sizin cavabınız öz "ampluanızda" - öz səviyyəsizliyinizdə, səthiliyinizdə və dayazlığınızdadır. Prezidentin Sizi təqdimi isə zərgər dəqiqliyi ilə, düzgün, məntiqi və alternativsizdir: "Kimdir Vəzirov? Təlxək! Azərbaycanı biabır edən. Azərbaycan xalqının qanını axıdan!".

Sözardının sonunda açıq məktubdan sətirlər düşür yadıma: "ən qatı cinayətkarlar da, içlərində zərrə qədər qeyrət, namus hissi varsa, xalq məhkəməsində günahlarını etiraf edirlər, törətdiklərini açıb-ağardırlar"...

Siz doxsan yaşın kandarında da özünüzdə bu təpəri tapa bilmədiniz, buna sadəcə layiq deyilsiniz!

Siz - əski cəmiyyətin də, bu günün də şər qazanı!

***12 mart 2019. Bişkek.***

# Camaata yedizdirilən leş əti söhbətləri qızışır, Qida... Agentliyi susur...

**Son günlər mediada və sosial şəbəkələrdə yaradılmasından o qədər də böyük zaman keçməyən Qida Təhlükəsizliyi Agentliyinin yarıtmaz fəaliyyəti haqda ciddi məlumatlar dərc edilir. Qeyd edək ki, sözügedən qurum 2017-ci ilin fevralında Prezidentin Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ilə bağlı imzaladığı fərmandan sonra fəaliyyətə başlayıb.**




Agentliyin fəaliyyətə tam start götürdüyü vaxt 2018-ci ilə təsadüf edir. Bu müddət ərzində, demək olar ki, hər gün sosial media və KİV-lərdə agentliyin "leş mafiyası"na yaşıl işıq yandırmasına dair iddiaların səsləndirildiyinin şahidi oluruq. Ən maraqlısı isə budur ki, agentliyin rəhbərliyi və rəsmiləri medaidan qaçmaq yolunu tutublar. Onların fəaliyyəti barədə məlumatları biz qəssəbxanalardan, yeməkxana və digər iaşə obyektlərindən ala bilirik. Sahibkarlar yeni agentliyin rəsmiləri ilə necə və hansı əsaslarla anlaşıb fəaliyyət göstərdiklərini çəkinmədən danışırlar. Yaxşı yadımızdadır ki, agentlik yeni yaradılan kimi, qurumun rəhbəri aparıcı media nümayəndələri ilə bir görüş keçirdi. Özünü mediaya açıq olacaq bir məmur kimi təqdim edən Qoşqar müəllimi ondan sonra media əhlindən gördüm deyən olmayıb. Bu cür məxfilik nəyə xidmət edə bilər? İki nəticə çıxara bilərik: ya Qoşqar müəllim bununla saymazlığını nümayiş etdirir, "nə istəyirlər yazsınlar!" kimi prinsipi rəhbər tutub hərəkət edir, ya da səslənən ittihamların qabağında deməyə söz tapmır. Şübhəyə düşdüyümüz hər iki məqam təbii ki, Qoşqar Təhməzlinin ziyanınadır. Yaxşı olar ki, Qoşqar müəllim çıxıb özü mediaya yazılanlarla bağlı bir aydınlıq gətirsin. Axı səslənən ittihamlar kifayət qədər ciddidir və ictimai rəyə təsir gücü olan şəxslər tərəfindən dövriyyəyə buraxılır. Gəlin haqqın.az və virtual az.org saytlarının rəhbəri Eynulla Fətullayevin agentliyin rəhbəri Qoşqar Təhməzlinin fotosunu "Facebook"da paylaşaraq, altından yazdığı cümlələrə fikir verək: "Tanış olun: Qoşqar Təhməzli, agentliyin rəhbəri, faktiki olaraq, özümüzə və balalarımıza qarşı çirkin əməllərin iştirakçısı! Məncə, bu gün Azərbaycanda korrupsiyaya ən çox bulaşmış dövlət orqanı Qida Təhlükəsizliyi Agentliyidir. Şəhərin canına düşüb bütün kafe və restoranlardan rüşvət yığırlar. Halbuki, beynəlxalq təşkilatların rəyinə görə, Azərbaycanda qida təhlükəsizliyi problemi katastrofik durumdadır.

Hər səhər, təxminən saat 5.00-dan - 8.00 qədər Təzə Bazarda ölü ətinin kilosunu 1 manatdan satırlar. Restoran və dönərxana sahibləri bu qara nöqtənin əsas müştərilərindəndir. Qida Təhlükəsizliyi Agentliyi bu "qara bazar"dan rüşvət alır və belə cinayətlərə göz yumur...

Məncə, bu agentliyin fəaliyyəti ciddi nəzarətə götürülməlidir".

Göründüyü kimi, jurnalistin yazısında kifayət qədər ciddi ittihamlar yer alır. Hətta kilosu bir manata satılan leş ətin harada satıldığına dair ünvan da göstərilir. Bu ciddi fakt ilk olaraq bizim diqqətimizi cəlb etdi. Elə həmin gündən başlayaraq, mövzunu araşdırmaq qərarına gəldik. Əməkdaşımızın ünvanladığı suala qurumun mətbuatla əlaqələrin tənzimlənməsinə məsul olan şəxsinin verdiyi cavab maraqlı oldu: "Hələ ki, rəsmi açıqlama yoxdur, olan kimi təqdim edəcəyik". İki gündür gözləyirik, amma hələ də Qida Təhlükəsizliyi Agentliyi Bakıda leş ətin satılıb-satılmadığı ilə bağlı məsələyə aydınlıq gətirmək istəmir. Ancaq bu sahəni tədqiq edən tanınmış ekspertlər səslənən iddiaların doğru olduğunu açıq bəyan edirlər. Hörmətli Qoşqar müəllimin diqqətinə çatdırırıq ki, bu cür hallarda bəzən susmağı razılıq əlaməti kimi də qəbul edirlər. Amma səslənən cinayət tərkibli ittihamların qabağında susmaq çox ciddi şübhələrə yol açmış olur. Bəlkə bir cəsarət tapıb medianın önünə çıxasınız. Təzə vəzifəyə təyin olunduğunuz zamandakı kimi...

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda ən ucuz və ən bahalı kasko sığortaları...

**Hər bir insanın yaşadığı evdə, yol getdiyi avtomobildə, keçdiyi küçədə elə gözlənilməz hadisələr baş verə bilər ki, onları əvvəlcədən demək çox çətindir. Belə təsadüfi risqli hadisələr hər yerdə gözlənir və onlara inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələrdə rast gəlinə bilər.**



***"Ata Sığorta" Nigar İbrahimova:*** *"Son zamanlar kasko sığorta ilə bağlı müraciət edənlərin sayı artıb"*

***"Bakı Sığorta" şirkəti:*** *"Kasko sığorta ilə bağlı sığorta bazarına yeniliklər gətiririk"*

***"Günay" sığorta şirkəti - Vüsal Əsgərov:*** *"10 000 manat dəyərində olan avtomobilin kasko sığorta qiyməti 275 manatdır"*

***"Atəşgah" sığorta şirkəti - Elnur Zeynalov:*** *"Hazırda dəyəri 10-20 min manat olan avtomobillərin kasko sığortası üçün daha çox müraciət olunur"*

Gözlənilməz hadisələrin qarşısını almaq üçün nə qədər qabaqlayıcı tədbirlər görülsə də, bu sahədə texnoloji yeniliklərdən və maarifləndirmədən istifadə olunsa da, onlardan hər zaman yayınmaq praktik olaraq mümkün deyil. Bu da gözlənilməz hadisələrdən dəyən zərərlərin sığorta yolu ilə əvəz olunmasının əhəmiyyətini artırır.

Bu baxımdan insan həyatına sıx daxil olmuş avtomobil nəqliyyat vasitələrindən istifadə zamanı da baş verən qəfil hadisələr həm avtomobilin özünə, həm də hadisənin digər iştirakçısının həyatına, sağlamlığına, mal və əmlakına zərərlər vura bilir. Bu da, öz növbəsində, avtomobillərdən istifadə ilə əlaqədar həm mülki məsuliyyət, həm də avtomobillərin tam sığortasının əhəmiyyətini artırır. Belə ki, avtomobil nəqliyyat vasitələrindən istifadə zamanı sığorta olunmaq bəzən qaçılmaz bədbəxt hadisələrin vurduğu maddi zərərlərin əvəz edilməsində avtomobil sahibinin köməyinə gəlir.

Ölkəmizdə mövcud olan qanuna əsasən, belə bədbəxt hadisələr zamanı üçüncü şəxslərə dəyə biləcək zərərləri ödəmək üçün icbari, zərərvuran avtonəqliyyat vasitəsinin sahibinin özünə dəymiş maddi zərəri ödəmək üçün isə avtonəqliyyat vasitəsinin tam sığorta müqaviləsi, başqa sözlə, kasko sığortası müqaviləsi bağlanır. Bəzi şəxslər icbari sığorta ilə kasko sığortanın eyni mahiyyəti daşıdığını düşünür. Ancaq icbari sığorta ilə kasko sığorta arasında fərq var. Belə ki, kasko sığortası səbəbindən asılı olmayaraq, avtomobilə dəymiş ziyanın əvəzini ödəyir. İcbari sığorta isə avtomobil sahibinin və ya sürücüsünün başqa üçüncü şəxslərin əmlakına, o cümlədən, həyat və sağlamlığına vurduğu ziyanın əvəzinin ödənilməsini təmin edir.

Kasko sığorta ilə bağlı vəziyyəti araşdırmaq üçün sığorta şirkətləri ilə əlaqə saxladıq. Məlum oldu ki, bəzi sığorta şirkətləri müştəriləri cəlb etmək üçün kasko sığorta ilə yanaşı, müəyyən kasko sığorta paketləri də təqdim edirlər.

"Atəşgah" sığorta şirkətinin nümayəndəsi Elnur Zeynalov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son zamanlar kasko sığorta üçün müraciət edənlərin sayı elə də çox deyil. Kasko sığortanın qiyməti avtomobilin ilindən, modelindən, sürücünün yaşından və təcrübəsindən asılı olaraq dəyişir.

Həmsöhbətimizin sözlərinə görə, hazırda dəyəri 10-20 min manat olan avtomobillərin kasko sığortası üçün daha çox müraciət olunur. Dəyəri 50 min manatdan yüksək olan avtomobillərin kasko sığortası üçün az müraciət olunur: "10-20 min manat avtomobillərin sığorta dəyəri 400-1000 manat arasında dəyişir. Nəzərə almaq lazımdır ki, hər maşının ehtiyat hissələrinin qiyməti fərqli olur".

"Ata Sığorta" ASC-nin Anderraytinq və Təkrarsığorta Departamentinin direktoru Nigar İbrahimova bizimlə söhbətində qeyd etdi ki, son zamanlar kasko sığorta ilə bağlı müraciət edənlərin sayı artıb. Artımın səbəbi əhalinin sığorta barəsində məlumatlı olması ilə əlaqədardır: "Avtomobilin dəyərinin neçə olmasından asılı olmayaraq, sığorta üçün müraciət olunur. "Ata Sığorta"nın kasko sığortası üzrə bir neçə məhsulu var. Müştəriyə kasko sığorta üzrə yeni məhsulları da təqdim edirik".

"Günay" sığorta şirkətinin koordinatoru qəzetimizə açıqlamasında qeyd etdi ki, avtobolin kasko sığortasının qiyməti maşının mühərrikinin gücü, onun istehsal olunma ilindən asılı olaraq dəyişir: "Məsələn, 10 000 manat dəyərində olan avtomobilin kasko sığorta qiyməti 275 manatdır. Onu da deyim ki, 2015-2019-cu il istehsalı olan avtomobillərin kasko sığorta qiyməti 275 manatdır. Qeyd etdiyim kimi, maşının qiyməti, istehsal olunma ilindən asılı olaraq, kasko sığortanın qiyməti dəyişir".

"Bakı Sığorta" şirkətindən verilən məlumata görə, adıçəkilən şirkət sığorta bazarına yeniliklər gətirir. Belə ki, sığorta şirkəti bu dəfə avtomobil sığortası üzrə yeni qiymətləndirmə sistemini (Insurance Scoring System) təqdim edib: "Standart yanaşmalardan fərqli olaraq, bu sistem kasko sığortanı daha ucuz , illik 1%-lə (orta bazar qiymətlərindən 60 % aşağı qiymətlə) əldə etmək imkanı yaradır. Tələb olunan məlumatları doldurduqdan sonra sistem avtomatik olaraq 1%-lik təklifə uyğunluğu yoxlayır və real vaxtda qiymətləndirmə aparır. Əgər nəticə uğurludursa, şəxs kasko sığortanı illik 1 % tariflə əldə etmək hüququ qazanır.

Konkret bir misal üzərindən bu yanaşmanın üstünlüyünü və faydasını belə izah etmək olar. Misal üçün, dəyəri 30 000 manat olan avtomobilin normal halda (orta bazar qiyməti) kasko sığortası 840 manatdır. Lakin sistem vasitəsilə eyni avtomobili 300 manata sığorta etmək imkanı yaranır. Bu, 540 manat qənaət etmək şansı deməkdir".

***Günel CƏLİLOVA***

**"Bu gün xeyli sayda Azərbaycan vətəndaşı orqan transplantasiyası əməliyyatı gözləyir". Bunu Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov orqan transplantasiyası üzrə keçirilən dinləmələrdə çıxış edərkən deyib. O qeyd edib ki, orqan transplantasiyası son 50 ildə inkişaf etməyə başlayıb.**

# Əhliman Əmiraslanov orqan transplantasiyası gözləyən insanların dərdini MM-də yenidən qaldırdı



*"... sağlam və cavan adamların yarılıb ondan orqan götürülməsinə icazənin..."*

## *Adil Qeybulla: "Hazırda orqan transplantasiyası ilə bağlı donor çatışmazlığı yaşanır"*

Son illərdə isə bu sahə geniş vüsət alıb. Hər il dünyada 120 mindən çox orqan transplantasiyası əməliyyatı icra edilir. Amma dünyada pasiyentlərin orqan transplantasiyasına olan ehtiyacı bu göstəricidən daha çoxdur.

Komitə sədri bildirib ki, Azərbaycanda da orqan transplantasiyası sahəsində irəliləyiş var və çox sayda əməliyyat icra edilir: "Amma orqan transplantasiyası sahəsində əsas problem donorluqla bağlıdır. Donorların sayının az olması, əməliyyata ehtiyacı olan orqanların tapılmaması əməliyyatların sayına təsir göstərir. Orqan transplantasiyası ilə bağlı mövcud qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var. Buna görə də parlament tərəfindən orqan transplantasiyası haqqında mükəmməl qanun layihəsinin hazırlanması qərara alınıb".

Ekspertlər də orqan transplantasiyası ilə bağlı donorların sayının az olması fikri ilə razılaşırlar.

**Professor, tibbi ekspert Adil Qeybulla bizimlə söhbətində qeyd etdi ki, hazırda tək ölkəmizdə deyil, əksər xarici ölkədə də orqan köçürülməsi üçün donor çatışmazlığı yaşanır:** "Bəllidir ki, insan yalnız kliniki ölüm keçirdiyi zaman onun orqanlarını götürmək olar. Orqan köçürülməsi məsələsində diqqət edilməli bir neçə nüans var. Orqan kimdən köçürülə bilər? Orqan beyin ölümü keçirmiş, orqanları hələ salamat olan, özü nəfəs alan, amma həyata qaytarılması mümkün olmayan şəxslərdən köçürülə bilər. Bunu da tibbi komissiya araşdırır və bundan sonra həmin insandan orqan köçürülməsinə icazə verir. Orqan köçürülməsi xəstənin himayədarı, atası, anası, qohumlarının razılığı olmadan həyata keçirilə bilməz. Onu da qeyd edim ki, orqanı köçürülə bilən adamlar adətən cavan adamlar olmalıdırlar. Avtomobil qəzası və ya üzləşdiyi hansısa qəza nəticəsində aldığı travmadan və ya digər patologiyadan beyin ölümü keçirmiş adam olmalıdır. Ən əsası nəzərə alınmalıdır ki, köçürülən orqan sağlam və salamat olmalıdır. Yəni elə xəstəliklər var ki, o xəstədən orqan köçürmək məsləhət deyil".

Həmsöhbətimiz onu da vurğuladı ki, hazırda orqan transplantasiya ilə bağlı bir sıra problemlər yaşanır. Onlardan biri də sağlam və cavan adamların yarılıb ondan orqan götürülməsinə icazənin verilməməsidir: "Cəmiyyət buna hazır deyil. Əvvəla orqan nəqli konsepsiyası bir sistem olmalıdır. Bu sistem ondan ibarətdir ki, donor bankı yaradılmalı və cəmiyyət buna psixoloji hazır olmalıdır. Cəmiyyət daxilən qəbul etməlidir ki, dünyasını dəyişməkdə olan, həyatını itirməkdə olan bir insanın orqanı başqa bir insana həyat verə bilər. Biz bunu qəbul etməliyik.

**Yalnız qəbul etdikdən sonra buna hazır ola bilərik. Təbliğat aparmaq, cəmiyyəti buna hazırlamaq lazımdır. Digər tərəfdən də sistem odur ki, Azərbaycanın bir rayonunda bir orqana ehtiyac varsa, başqa bir rayonda da donordan daxili orqan götürülübsə, dərhal növbədə olan adama köçürülür. Dünyanın hər yerində bu cür sistem var".**

*Günel CƏLİLOVA*

**Son 10 gündə ölkənin mədəni həyatında bir sıra yaddaqalan hadisələr baş verib. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə kino və teatr sahəsinin inkişafına səbəb olan addımlar atılıb. Bura teatra və kinoya birdəfəlik maliyyə yardımının ayrılmasını, eləcə də ölkənin iki aparıcı teatrına akademik statusun verilməsi və s. daxildir.**

# Teatr və konsert işçiləri də dövlətin sosial himayə paketindən bəhrələndi...




*"Mədəniyyət işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məsələsinə dövlətin bu dərəcədə əhəmiyyət verməsi müsbət haldır"*

## *Həsən Həsənov: "Teatr və konsert müəssisələri əməkdaşlarının maaşlarının artırılması təqdirəlayiqdir"*

Mədəniyyət və incəsənət sahəsinə və bu sferada çalışanlara davamlı olaraq qayğı göstərən Prezident İlham Əliyev Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında da sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, ölkəmizdə teatr sənətinin daha da inkişaf etdirilməsi, teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il martın 1-dən orta hesabla 50 faiz artırılması təmin edilsin.

Bu sahədə çalışan insanların əməkhaqlarının 50 faiz artırılması mədəniyyət işçilərinin sosial müdafiəsinin təmin edilməsi istiqamətində atılan addımlardan biridir.

**Əməkdar mədəniyyət işçisi Həsən Həsənov bizimlə söhbətində bildirdi ki, dövlət tərəfindən həyata keçirilən sosial siyasət ölkə əhalisinin bütün təbəqələrini əhatə edir.** Prezidentin teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında imzaladığı sərəncamın bu sahədə işləyən insanlara böyük stimul verdiyini deyən H.Həsənovun bildirdiyinə görə, bu insanlar Prezident sərəncamını müsbət qarşılayırlar. "Teatr və konsert müəssisələri əməkdaşlarının maaşlarının artırılması təqdirəlayiqdir, bu çoxdan gözlənilən bir hadisə idi. Bu ilk növbədə teatr işçilərinin güzəranını yaxşılaşdıracaq, onların işə məsuliyyətini artıracaq. Həm də, elə bilirəm, ötən illərdən qalan bir çox problem, az da olsa, öz həllini tapacaq. Bu, Prezidentin Azərbaycan teatrına bir töhfəsidir.

**Mən bunu yüksək dəyərləndirirəm. Mədəniyyət işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məsələsinə dövlətin bu dərəcədə əhəmiyyət verməsi müsbət haldır" - deyə H.Həsənov qeyd etdi.**

*İradə SARIYEVA*

# Almaniyanın Azərbaycana diri heyvan satışını məhdudlaşdırmasına dair inanılmaz izah...

**Almaniyanın Şlezviq-Holşteyn (Schleswig-Holstein) Federal Əyaləti Türkiyə, Yəmən, Liviya, Mərakeş, Əlcəzair, Azərbaycan, Suriya, İordaniya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan kimi əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən ölkələrə diri heyvan satışını dayandıra bilər.**



*"Mən özüm dəfələrlə şahidi olmuşam ki, bu heyvanlar müasir nəqliyyat vasitələri ilə ölkəyə gətirilib, təsərrüfatlara paylanıb"*

***Nicat Nəsirli:** "İstənilən halda, belə bir məsələ varsa, narahat olmağına dəyər"*

Almaniyada fəaliyyət göstərən "Leqat" inteqrasiya mərkəzindən mətbuata daxil olan məlumatda deyilir ki, buna əsas kimi, Azərbaycan da daxil olmaqla, həmin ölkələrdə heyvan hüquqlarının pozulması göstərilir. Şlezviq-Holşteyn Federal Əyalətində müəyyən edilmiş qaydalara görə, heyvanlar daşınarkən maksimum 29 saatdan bir nəqliyyat vasitəsindən endirilməli, gəzintiyə çıxarılmalı, onlara su və yemək verilməlidir. Şlezviq-Holşteyn hökumətinin bildirdiyinə əsasən, adıçəkilən ölkələr aldıqları heyvanlara qarşı bu qaydaları pozur, onların dincəlmək, yemək, su və içmək rejiminə riayət etmirlər. Məlumatda o da qeyd olunur ki, son illərdə mal-qaranın daşınması zamanı onların havasızlıqdan boğularaq tələfolma halları da artıb.

Siyahıya Azərbaycanın da daxil edilməsi bir qədər təəccüblə qarşılanır. Çünki Azərbaycanda son illər cins heyvandarlığın inkişafı üçün bir sıra işlər görülür. Bununla bağlı dövlət büdcəsindən vəsait ayrılır, sahibkarlara əlverişli şərtlərlə kredit verilir, xaricdən cins heyvanlar gətirilir. Onlara qulluq qaydaları öyrənilir və s. Belə olan halda, Azərbaycanda heyvan hüquqlarının pozulması haqda səslənən fikirlər nə dərəcədə reallığa uyğundur?

**Sözügedən məsələyə aydınlıq gətirən "Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin şöbə müdiri, kənd təsərrüfatı məsələləri üzrə ekspert Nicat Nəsirlinin fikrincə, bu məlumat dəqiqləşdirilməlidir:** "Almaniyanın Şlezviq-Holşteyn Federal Əyalətinin bir sıra Şərq ölkələrinə, eyni zamanda, Azərbaycana da cins mal-qara satışını dayandıracağı haqqında bəyanatı əlbəttə ki, dəqiqləşdirilməlidir. İstənilən halda, belə bir məsələ varsa, narahat olmağına dəyər. Çünki ölkəmizdə son illər heyvandarlıqda cins tərkibinin dəyişdirilməsi ilə bağlı çox mühüm addımlar atılır. Bu məsələdə əsas tərəfdaş ölkələrdən biri Almaniyadır. Yaxın vaxtlarda Kənd Təsərrüfatı Nazirliyi tərəfindən heyvandarlığın inkişafı ilə bağlı yeni dövlət proqramı elan olunacaq. Təbii ki, o proqramda ölkədəki təsərrüfatlarda yeni məhsuldar cinslərin istehsalata daxil edilməsi xüsusi xətlə keçməlidir. Xarici ölkələrdən Azərbaycana heyvanların gətirilməsi indiyə qədər "Aqrolizinq" ASC-nin nəzarəti altında təchizatçı şirkətlər tərəfindən həyata keçirilib. Yəni daşınmaya cavabdeh birbaşa bu şirkətlərdir. "Aqrolizinq"lə bu şirkətlər arasında mövcud olan müqavilələrdə açıq şəkildə tələb olunur ki, heyvanlar hər 24 saatdan bir dincəlsin, nəqliyyat vasitəsindən düşürülərək yemlənsin, təmiz hava alsınlar. Hətta heyvan yolda tələf olarsa, xəstəlik tutarsa, məsuliyyəti təchizatçı şirkətlətin boynundadır. Ölkəyə gətirilərək sağlam çəkidə təhvil verilərsə, məsuliyyət "Aqrolizinq"ə keçir. "Aqrolizinq" isə, ilk növbədə, bir neçə aylıq karantin rejimi tətbiq edir və bu zaman heyvanın sağlam olub-olmaması, xəstəlikləri aşkara çıxır".

N.Nəsirlinin sözlərinə görə, Almaniyadan bura 5 min kilometr məsafə var: "Mən özüm dəfələrlə şahidi olmuşam ki, bu heyvanlar müasir nəqliyyat vasitələri ilə ölkəyə gətirilib, təsərrüfatlara paylanıb. Lakin bu heyvanların Almaniyadan bura 5 min kilometrə qədər keçib gəldikləri məsafə var. Bu qədər məsafədə onlara hansı münasibət göstərilib, təbii ki, bunu təchizatçı şirkətlər aydınlaşdırmalıdır. Hətta yaxşı olar ki, daşıma ilə bağlı tətbiq etdikləri qaydaları ictimaiyyətə nümayiş etdirsinlər. Məsələnin başqa bir tərəfi, cins heyvanların təsərrüfatlarda saxlanma-bəslənmə şəraitinin təmin olunmasıdır. Fikrimcə, bu gün ölkəmizdə cins mal-qara alıb saxlamağa maraq göstərən yüzlərlə heyvandar var. Ancaq onların müasir bilikləri varmı? Heyvandarlar bilməlidirlər ki, Avropadan gəlmiş heyvanlar qüvvəli yemə, qulluğa son dərəcə tələbkardırlar. Potensial məhsuldarlığı yüksək olan bu cinslər yalnız ən yüksək səviyyədə qulluqla əhatə olunanda ciddi artım verir. Son illər respublikamızda tikilmiş çoxsaylı iri heyvandarlıq təsərrüfatında saxlama, yemləndirmə şəraiti yüksək səviyyədə təşkil edilib. Kiçik təsərrüfatlarda bu qaydalara əməl edilmədiyini görürük. Saxlama, qüvvəli yemləndirmə, baytarlıq xidmətləri olmayan kiçik heyvandarlar xaricdən gətirilmiş cins mal-qara alarkən ciddi düşünməli, heyvanların uçot sistemini qurmalı, yem əkinlərinə nail olmalıdırlar. Yaxşı olar ki, onlar xaricdən gətirilmiş cinslərə maraq göstərməkdənsə, vaxtilə gətirilmiş, indi isə yerli iqlimə uyğunlaşdırılmış heyvanlardan damazlıq kimi istifadə etsinlər. Bu cür cinslər satan iri təsərrüfatlar respublikamızda kifayət qədərdir".

Məsələ ilə əlaqədar "Aqrolizinq" ASC-dən münasibət öyrənməyə çalışsaq da, bu mümkün olmadı.

***Vidadi ORDAHALLI***

# Nazirlik uşaqların birinci sinfə qəbulunda valideynlər üçün çox üzücü proseduru xeyli sadələşdirdi...

**Azərbaycanda orta ümumtəhsil məktəblərində I sinfə qəbul qaydaları sadələşdirilib. Belə ki, Təhsil Nazirliyindən verilən rəsmi açıqlamaya görə, məktəbəhazırlıq qruplarında təhsil alan uşaqların valideynlərinin istəyi nəzərə alınaraq, I sinifdə də onların eyni sinifdə komplektləşdirilməsi və eyni müəllimin tədris aparması nəzərdə tutulur.**



*"Düşünürəm ki, nazirlik bu məsələdə düzgün addım atıb və problemin bu şəkildə həlli gözlənilən idi"*

***Məlahət Mürşüdlü:** "Həm İ sinfə qəbul qaydalarının sadələşdirilməsi, həm də qəbulun mart ayından onlayn həyata keçirilməsi çox müsbət haldır"*

Bu qayda 2018-2019-cu tədris ilində məktəbəhazırlıq qruplarında dərs deyən, 2019-2020-ci tədris ilində I sinifdə tədris aparması planlaşdırılan müəllimlərin dərs dediyi siniflərə şamil olunur.

Nazirlikdən o da deyilib ki, məktəbəhazırlıq qruplarındakı uşaqların I sinfə qeydiyyatına ehtiyac yoxdur. Martın 11-dən başlayaraq məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar avtomatik olaraq hazırlıq keçdikləri məktəblərin birinci siniflərinə qəbul olunacaqlar. Bununla bağlı həmin uşaqların valideynlərinə 11-12 mart tarixlərində bildirişlər göndəriləcək.

O da vurğulanıb ki, təhsil nazirinin imzaladığı əmrə əsasən, 2019-2020-ci dərs ilində Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Naftalan şəhərləri, Abşeron, Samux, Yevlax rayonları üzrə ümumtəhsil məktəblərində I sinfə şagird qəbulu elektron sistem vasitəsilə həyata keçiriləcək. Həmin rayonlarda yerləşən məcburi köçkün məktəblərinin I siniflərinə qəbul da elektron sistem vasitəsilə aparılacaq.

**Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü bununla bağlı "Bakı-Xəbər"ə bildirdi ki, I sinfə qəbul qaydalarının sadələşdirilməsi çox müsbət addımdır və bu, uşaqların maneəsiz I sinfə getməsinə şərait yaradır.** Əvvəlki dövrlərdə I sinfə qəbul qaydalarının mürəkkəb olduğunu deyən M.Mürşüdlünün sözlərinə görə, bu da valideynlər üçün ciddi problem yaradırdı. Lakin yeni tədris ilində qaydaların yumşaldılması valideynlərə və uşaqlara psixoloji gərginlik yaşatmayacaq. "Bu olduqca vacib bir məsələdir və onun bu şəkildə həllini tapması çox müsbətdir. Bu qərarın qəbul edilməsi gözlənilən idi. Çünki Azərbaycanda orta təhsil icbari və orta təhsil hər kəs üçün əlçatan olmalıdır. Bu sahədə heç bir bürokratik əngəl olmamalı, əlavə sənədlər tələb edilməməlidir. Həm I sinfə qəbul qaydalarının sadələşdirilməsi, həm də qəbulun mart ayından onlayn həyata keçirilməsi də çox müsbət haldır. Bilirsiniz ki, yay aylarında bir çox valideyn şəhərdə olmurdu, sənədləşmə məsələsində gecikmələr olurdu, şikayətlər çoxalırdı. Buna görə də indidən başlanması mükəmməl bir fəaliyyətdir".

M.Mürşüdlü, həmçinin, vurğuladı ki, qəbul qaydalarının daha da sadələşdirilməsinə ehtiyac vardı və bu da reallaşdırıldı. O qeyd etdi ki, uşaq I sinfə qəbul olunarkən lazım olan sənədlər sonrakı mərhələdə də toplana bilər. "Düşünürəm ki, nazirlik bu məsələdə düzgün addım atıb və problemin bu şəkildə həlli gözlənilən idi" - deyə M.Mürşüdlü bildirdi.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az



# Elm və təhsilin inkişaf etdirilməsi

**Elm və təhsil hər bir dövlətin, xalqın əsas sütunlarından, dayaqlarından biridir. Elmsiz, təhsilsiz cəmiyyət inkişafa, tərəqqiyə, uğura nail ola bilməz. Bu tarixən belə olub. Çünki mayası, özəyi olmayan cəmiyyətin formalaşması mümkünsüzdür.**

Dünyada bütün inkişaf etmiş ölkələrin tarixənə nəzər salsaq görərik ki, həmin dövlətlərin bu səviyyəyə gəlib çatmasının kökündə elm və təhsilin inkişafı dayanır. 19-cu əsrin ortalarında bu sahədə baş verən yeniliklər sonrakı dövrdə dünyanın inkişafına əhəmiyyətli dərəcədə yön verməyə başladı.

Azərbaycanda elmin inkişafına hələ qədim zamanlardan böyük əhəmiyyət verilib. Tarixən müxtəlif dövrlərdə Azərbaycan alimləri yaşayıb, yaradıb, nəinki milli elm tariximizdə, hətta dünyanın elm tarixində hadisə olan əsərlər yazıb, kəşflər edib, məktəblər formalaşdırıblar. Bu gün o məktəblər dünyanın elm tədqiqatçıları tərəfindən öyrənilir, tətbiq edilir. Müstəqil Azərbaycan da elm və təhsilin inkişafına xüsusi diqqət yetirir. Azərbaycan dövləti son illər hər iki sahədə böyük islahatlar, birbirilə sıx bağlı olan bu istiqamətlərin, sahələrin inkişafına yönələn tədbirlər həyata keçirib. Azərbaycanda elm siyasətinin yenidən müəyyən edilməsi, onun müxtəlif istiqamətinin təkmilləşdirilməsi, bu yöndə yeniliklərin tətbiqi müasir elmimizin dünya elmi ilə uzlaşmasına gətirib çıxarıb. Bu müsbət hadisə ölkənin elm ictimaiyyəti tərəfindən razılıqla qarşılanır. Məlum olduğu kimi, illər əvvəl Azərbaycanda elm və təhsil sahəsinin vəziyyəti elə də ürəkaçan deyildi. Bu gün alimlərin, elm adamlarının, təhsil işçilərinin sosial vəziyyəti xeyli yaxşılaşıb. Onların əməyinin dəyərləndirilməsi sahəsində bir sıra addımlar atılıb. Elm adamlarının bu sahə ilə məşğul olması üçün hər cür şərait yaradılıb. Qlobal dünyanın çağırışlarına cavab verən müasir təhsil sisteminin qurulması Azərbaycan dövlətinin başlıca hədəflərindəndir. Sürətli inkişaf yolunda olan Azərbaycanda təhsilin maddi-texniki bazası möhkəmləndirilir, dünyanın qabaqcıl ölkələrinin bu sahədəki təcrübələri öyrənilir və tətbiq edilir. Xalqımız hər zaman təhsilə, elmə, maariflənməyə xüsusi maraq göstərib. Bu gün hər bir azərbaycanlı ailəsi övladlarının təhsil alması, cəmiyyətə yararlı, savadlı bir şəxsiyyət kimi formalaşmasına çalışır. Əlbəttə ki, sağlam təfəkkürlü gənc nəslin yetişməsində fədakar, savadlı, təcrübəli müəllimlərin, təhsil işçilərinin rolu əvəzsizdir. Azərbaycanda uşaqların yaxşı təhsil alması üçün valideynlər mümkün olan qədər çalışırlar. Uşaqları hazırlıq kurslarına yazırlar, imkanlı olan şəxslər uşaqlarının ən yaxşı özəl liseylərdə təhsil almasına önəm verirlər. Azərbaycan cəmiyyətində təhsilə xüsusi diqqət yetirilir. Öz gələcəyini düşünən hər bir cəmiyyət, xalq, dövlət birinci növbədə öz məktəbinə, təhsil sisteminə böyük diqqətlə yanaşmalıdır. Azərbaycan xalqı həmişə elmə, təhsilə, maariflənməyə həvəsli olub. Cəmiyyətdə savadlı, təhsilli insanların xüsusi çəkisi olub.

Azərbaycan dövləti də təhsilin inkişafına xüsusi diqqət ayırır. Son illər bu sahədə çoxsaylı iş həyata keçirilib. Xeyli sayda məktəb tikilib, köhnə məktəblər əsaslı təmir olunaraq yenidən qurulub. Ucqar kəndlərdə modul tipli məktəblər istifadəyə verilib. Modul tipli məktəblərin tikintisi digər məktəblərlə müqayisədə ucuz başa gəlir. Ucqar və əhalisi az olan kəndlərdə belə məktəblərin tikintisi daha sərfəlidir. Bununla yanaşı, son illər ali və orta ümumtəhsil məktəblərində dərs deyən müəllimlərin məvacibi artırılıb. Azərbaycanda təhsil sisteminin müasir tələblərə cavab verməsi, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsil keyfiyyətinin artırılması istiqamətində işlər bu gün də davam etdirilir.

Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycanda təhsilin keyfiyyətinin daha da artırılması dövlətin qarşısında duran ən prioritet məsələlərdən biridir. Son illər ərzində paytaxtda və bölgələrdə köhnə məktəb binalarının müasirləşdirilməsi, yeni məktəblərin inşası sahəsində aparılan işlər çox yüksək dəyərləndirilməlidir. Azərbaycanda məktəb tikintisinə, məktəbəqədər təhsilin inkişafına Heydər Əliyev Fondunun verdiyi töhfələr də xüsusi qeyd olunmalıdır. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin başlanması bu işlərə böyük təkan verir.

Təhsil sistemində həyata keçirilən köklü islahatlar, müasir təhsil standartlarının tətbiqi, keyfiyyətin artırılmasının başlıca prioritet istiqamətlərdən biri kimi qəbul olunması, yüksək bilik və bacarıqlı gənc nəslin yetişdirilməsi yönündə görülən işlər Azərbaycan təhsilinin inkişaf imkanlarını genişləndirib. Təhsilin inkişafına dövlət tərəfindən göstərilən xüsusi diqqətin nəticəsidir ki, təhsil sahəsində bir sıra layihələr həyata keçirilib. Prezident İlham Əliyev martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə çıxışı zamanı deyib: "Təhsil sahəsində islahatlar aparılır və deyə bilərəm ki, müəllim peşəsini seçən abituriyentlərin sayı kəskin şəkildə artıb. Yeni cəmiyyətdə müəllim peşəsinə ənənəvi hörmət qayıdır və bu, islahatlar nəticəsində mümkün olub. Təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, 3200-dən çox məktəbin tikilməsi böyük dəyişikliklərə gətirib çıxarıb".

Azərbaycanlı gənclər dünyanın nüfuzlu ali məktəblərində təhsil alırlar. Dövlət tərəfindən buna verilən dəstəyin nəticəsidir ki, gənclərin böyük əksəriyyəti Azərbaycana qayıdaraq yüksək səviyyəli mütəxəssis kimi ölkədə öz fəaliyyətlərini davam etdirir, ölkənin ümumi inkişafına, iqtisadi, sosial həyatının daha da irəli aparılmasına öz töhfələrini verirlər. Dövlət rəhbərinin təhsilə qayğısı nəticəsində infrastruktur yenilənir, təhsilin keyfiyyəti yüksəlir, eyni zamanda, təhsil işçilərinin sosial rifahı ilbəil yaxşılaşır. Bu isə, ümumilikdə, müəllim peşəsinə olan marağın artmasına səbəb olub. Ali məktəblərə qəbul imtahanlarında 2000-dən çox tələbə 500-dən çox bal toplayaraq ali məktəblərə qəbul olunub. Dövlətin məktəbə, təhsilə, müəllimə göstərdiyi qayğının nəticəsidir ki, bu gün ali məktəbə qəbul olunan gənclərimiz arasında təkcə qadınlar deyil, kişilər də ilk seçdikləri ixtisaslar arasında müəllim peşəsinə daha böyük maraq göstərirlər. Bu gün təhsil sahəsində davamlı olaraq həyata keçirilən islahatlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcək. Bütün bu uğurlar Prezidentin təhsilin inkişafına göstərdiyi diqqət və qayğıdan qaynaqlanır. Təhsilə olan həssas münasibət son nəticədə müəllim peşəsinin nüfuzunun yüksəlməsində, cəmiyyətdə təhsilə olan müsbət yanaşmaların möhkəmlənməsində özünü göstərir. Həmçinin, ümumtəhsil məktəblərinin təmirtikinti işləri son illərdə davamlı olaraq həyata keçirilir. Bu işlər, ümumilikdə, məktəblilərin təhsil şəraitinin yaxşılaşdırılmasına, tədrisin keyfiyyətinin yüksəldilməsinə öz müsbət təsirini göstərir.

Son illər Azərbaycan Milli Elmlər Akademiyasında elmlə təhsilin səmərəli inteqrasiyasını təmin etmək, elmi kadr potensialının inkişafını sürətləndirmək və gənclərin elmə marağını artırmaq məqsədilə ciddi islahatlar aparılıb və əhəmiyyətli işlər həyata keçirilib. AMEA-da təhsil sistemini müasir səviyyədə inkişaf etdirmək aparılan islahatların başlıca hədəflərindən biridir. AMEA-nın Rəyasət Heyəti Azərbaycanda elm və təhsilin vəhdətini prioritet vəzifələrdən biri hesab edir. Bütün bunları nəzərə alaraq Akademiyada magistratura təhsilinin yaradılması ilə bağlı ölkə başçısına müraciət edilib. Ölkə Prezidenti bu müraciətə xüsusi diqqət göstərərək, AMEA-da ilk dəfə olaraq ali təhsilin ikinci pilləsi olan magistraturanın yaradılması barədə qərar qəbul edib. Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi isə bu işdə AMEA-ya hərtərəfli dəstək göstərib. Nəticədə 2015-ci ildə, ilk dəfə olaraq, AMEA-da ali təhsilin magistratura pilləsi yaradıldı. 2018-ci ildə AMEA magistraturasından ilk buraxılış uğurla başa çatdırılıb. Akademiyada magistraturanın yaradılması elmə marağı olan gənclər tərəfindən böyük rəğbətlə qarşılanıb. Məhz bunun nəticəsidir ki, hər il AMEA-nın magistraturasına ərizə verənlərin sayı yüksək olur. 2016-cı ildə bu rəqəm 700-ə, 2017-ci ildə isə 2000-ə yaxın, 2018-ci ildə isə 2000-dən çox olub.

Bütün bunlar həm də onun göstəricisidir ki, Azərbaycanda elmlə təhsilin uğurlu inteqrasiyası qurulub. Bunların vəhdət halında bir-birini tamamlaması ölkədə elm və təhsilin inkişafının davamlı olacağından xəbər verir. Müasir dövrün tələbləri ilə ayaqlaşmaq və bundan irəli gələn tələblərə cavab vermək üçün sadalanan amillərin nəzərə alınması vacibdir. O baxımdan müşahidələr göstərir ki, bu sahədə daha çox çalışmaq lazımdır. Müasir elmi-texniki nailiyyətləri öyrənmək, onları davamlı olaraq təhsildə və istehsalatda tətbiq etmək vacibdir. Çünki elmi-texniki yeniliklər davamlı olaraq cəmiyyətə, insanların həyat tərzinə öz təsirini göstərir. O üzdən, bütün bunların hər zaman bir-birini tamamlaması vacib məsələlərdən biridir. Ona görə də ölkədə elm və təhsilin inkişafına hər bir vətəndaş öz töhfəsini verməyə çalışmalıdır. Yalnız o halda daha böyük nailiyyətlər əldə etmək mümkün olacaq.

*Vidadi XUDAŞOV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.**

**Hər bir insanın yaşadığı evdə, yol getdiyi avtomobildə, keçdiyi küçədə elə gözlənilməz hadisələr baş verə bilər ki, onları əvvəlcədən demək çox çətindir. Belə təsadüfi risqli hadisələr hər yerdə gözlənir və onlara inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələrdə rast gəlinə bilər.**

# 14 yaşadək xəstə uşaqlara baxanlara qısa iş günü - nazirliyin yeni ideyası...




*"...iş saatının qısaldılması həmin qadınların əməkhaqqına təsir etməməlidir"*

***Fatimə Hacıbəyli:** "Himayəsində 14 yaşına kimi uşağı olan, eyni zamanda, sağlıq durumunda problemi olan şəxslərə nəzarət edən qadınların iş saatı dəyişilməlidir"*

"Hamilə, 14 yaşına çatmamış uşağı, yaxud sağlamlıq imkanları məhdud uşağı olan, habelə tibbi rəy əsasında xəstə ailə üzvünə qulluq edən qadınların xahişi ilə işəgötürən onlara natamam iş günü və ya natamam iş həftəsi müəyyən etməlidir. Bu halda qadının gündəlik və ya həftəlik iş vaxtının müddəti tərəflərin razılığı ilə müəyyən edilir".

Bu barədə Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumatda qeyd olunur. Bildirilir ki, əmək qanunvericiliyi əmək münasibətlərində digər bir sıra amillərlə yanaşı, işçilər arasında cinsi ayrıseçkiliyə yol verilməsini, habelə hüquqlarının məhdudlaşdırılmasını qadağan edir. İşçilər arasında belə ayrıseçkiliyə yol verən işəgötürən qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

Qadınların iş saatının dəyişdirilməsi fikri ilə ekspertlər də razılaşırlar.

**"Vəfa" Sosial İctimai Birliyinin rəhbəti Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, himayəsində 14 yaşına kimi uşağı olan anaların iş saatı qısaldılmalıdır:** "Tək himayəsində 14 yaşına kimi uşağı olan analara deyil, eyni zamanda, xəstə ailə üzvünə qulluq edən qadınların da iş saatında güzəşt tətbiq olunmalıdır.

Nəzərə almaq lazımdır ki, qadınların iş saatının qısaldılması həm ana olan qadınların uşaqlarına vaxt ayırması, həm də karyeralarını inkişaf etdirməsi baxımından önəmli hesab olunur. Həmçinin, qadınların ictimai həyatda fəal iştirakını təmin etməyə, məşğulluğunu, karyerasını davamlı şəkildə qurmağa xidmət edəcək bir təşəbbüsdür: "Yəni bir var ki, qadın bütün vaxtını uşağına sərf edir, işindən uzaqlaşır. Bu zaman karyerası inkişaf etmir, öz üzərində işləyə bilmir. Bir də var bu hüquq ona imkan verir ki, qısaldılmış iş şəraitini də davam etdirsin, uşağını da böyütsün".

Həmsöhbətimiz onu da əlavə etdi ki, xəstə ailə üzvünə qulluq edən qadınların da iş saatı qısaldılmalıdır: "Bu kimi hallar qanunvericilikdə xüsusi hal kimi qeyd olunmalıdır.

**Himayəsində 14 yaşına kimi uşağı olan, eyni zamanda, sağlıq durumunda problemi olan şəxslərə nəzarət edən qadınların iş saatı dəyişilməlidir. Ancaq onu da nəzərə almaq lazımdır ki, iş saatının qısaldılması həmin qadınların əməkhaqqına təsir etməməlidir".**

*Günel CƏLİLOVA*

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**(Əvvəli ötən saylarımızda)**

**ALZAMANOV BƏHMAN NURƏDDİN oğlu**



25 aprel 1973-cü ildə Azərbaycan Respublikasının Gədəbəy rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Xanlar (indi Göygöl) rayonunda yaşamışdır. Göygöl RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Alzamanov Bəhman Nurəddin oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 18 fevral 1993-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Alzamanov Bəhman Nurəddin oğlu 18 fevral 1993-cü il tarixində Ağdərə rayonunun Aterk (indi Həsənriz) kəndi ərazisində Qozlu körpü adlanan yerdə erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Alzamanov Bəhman Nurəddin oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**AMANOV (ƏMƏNOV) HÜSEYN RƏSUL oğlu**

30 mart 1973-cü ildə Azərbaycan Respublikasının Cəlilabad rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Cəlilabad rayon mərkəzində yaşamışdır. Cəlilabad RHK tərəfindən hərbi xidmətə çağırılmışdır.



Hərbçi. Amanov Hüseyn Rəsul oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Amanov Hüseyn Rəsul oğlu 16 fevral 1994-cü il tarixində Kəlbəcər rayonunun Murovdağ ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Amanov Hüseyn Rəsul oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ARAM RAMİZ PƏRVİZ oğlu**



19 iyul 1973-cü ildə Azərbaycan Respublikasının Bakı şəhərində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Sabunçu rayonunda yaşamışdır. Sabunçu RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Aram Ramiz Pərviz oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 18 fevral 1994-cü ildə Ağdərə rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Aram Ramiz Pərviz oğlu 18 fevral 1994-cü il tarixində Ağdərə rayonu ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Aram Ramiz Pərviz oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**ASALİYEV ELDAR HƏTƏM (ƏDHƏT) oğlu**

27 mart 1970-ci ildə Azərbaycan Respublikasının Xaçmaz rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Xaçmaz rayonunun Ləcət kəndində yaşamışdır. Xaçmaz RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Asaliyev Eldar Hətəm oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləş-



mələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 16 iyun 1993-cü ildə Ağdam rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Asaliyev Eldar Hətəm oğlu 16 iyun 1993-cü il tarixində Ağdam rayonunun Qalayçılar kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Asaliyev Eldar Hətəm oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**



# Mirzə Cəlil irsindəki müsəlman-erməni münasibətlərinə aid fraqmentləri redaktə edəkmi - ədəbi dairələrdə kəskin diskussiya gedir...

**Günəşin üzünü suvamaq mümkün olmadığı kimi, xalqımızın tarixi taleyində mühüm rol oynayan şəxsiyyətlərin də mütərəqqi əməllərinə kölgə salmaq mümkünsüzdür.**

100 ildən artıqdır Cəlil Məmmədquluzadənin (Mirzə Cəlil) əsərləri, hekayə və felyetonları ictimai-ədəbi fikrimizin əsas hərəkətverici qüvvəsinə çevrilib. Bəzən təəssüf ki, bunu görməzdən gələnlər tapılır. Son zamanlar bir qrup insan gündəmə gəlmək üçün meydana atılıb ki, bəs deme, Mirzə Cəlilin hekayələrinin, əsərlərinin redaktəyə ehtiyacı var (?). İddia edirlər ki, onun əsərləri, konkret olaraq məşhur "Poçt qutusu" hekayəsi redaktə olunmalıdır, guya ki, edib burada erməni uşağının Novruzəlidən daha ağıllı olduğunu göstərib, bununla da ermənilər bizi gülüş hədəfinə çeviriblər (?). Bir neçə gündür mediada əsas mövzuya çevrilən bu məsələyə verilən reaksiyalar "Mirzə Cəlilin əsərləri redaktə olunmalıdır" deyən adamın özünü gülüş hədəfinə çevirib.

Azərbaycanlı-erməni münasibətləri kontekstində Mirzə Cəlilin əsərlərinin doğrudanmı redaktəyə ehtiyacı var?

**Görkəmli ədəbiyyat xadimi, xalq şairi Sabir Rüstəmxanlı mövzu ilə bağlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Mirzə Cəlilin bir sözünə belə toxunmaq olmaz.** "Mirzə Cəlil dahidir və tarix durduqca, Azərbaycan xalqı durduqca, o yaşayacaq. Dünya ədəbiyyatında öz xalqının içindəki neqativ hallara Mirzə Cəlildən və Sabirdən daha kəskin münasibət bəsləyən yazıçılar, şairlər olub. İndi onların hamısının əsərləri redaktə olunmalıdır? Ona görə də Mirzə Cəlilin heç bir sözünə toxunmaq olmaz. Nə "Poçt qutusu"na, nə "Kamança"ya, nə də başqa əsərlərinə toxunulmamalıdır. Mirzə Cəlil o cür görüb və hər şeyi gözəl də görüb" - deyə S.Rüstəmxanlı bildirdi.

**Tanınmış yazıçı Səfər Alışarlı da hesab edir ki, Mirzə Cəlilin əsərlərini redaktə etmək olmaz:** "...Nəyə görə bunlara toxunmaq, yəni Mirzə Cəlili redaktə etmək olmaz? Çünki bu, XIX-XX əsr Azərbaycan ədəbiyyatında yeganə nəhəngdir ki, müstəmləkə zülmü altında inləyən kobud, köntöy, heç bir mədəni çərçivə tanımayan kölə toplumun real həyat həqiqətlərini bədii təsvir vasitələri ilə ifadə edib, onu böyük ədəbiyyatın halalca malına çevirə bilmişdi. Bunu yalnız dövrünə görə savadlı, fitrətinə görə son dərəcə istedadlı və vətənpərvər bir adam eləyə bilərdi. "Molla Nəsrəddin" jurnalı nəşr olunanda da hökumət, senzura, zəngin, kasıb, molla, şilləvuran, üzəduran, polis varıydı bu məmləkətdə. O təpkilərin bircəciyini bizə göstərsəydilər, Allah bilir, nə edərdik!

Mirzə Cəlil böyük yazıçıdır, onu heç bir regional, heç bir milli çərçivə ilə məhdudlaşdırmaq olmaz. Onun bədii yaradıcılığı böyük ümumbəşəri dəyərlərin daşıyıcısıdır".

***Sabir Rüstəmxanlı:* ”Mirzə Cəlilin heç bir sözünə toxunmaq olmaz”**

***Səfər Alışarlı:* ”Mirzə Cəlil böyük yazıçıdır, onu heç bir regional, heç bir milli çərçivə ilə məhdudlaşdırmaq olmaz”**

***Buludxan Xəlilov:* ”Konkret olaraq erməni məsələsinə gəldikdə isə, çox tövsiyə edərdim ki, Mirzə Cəlili redaktə etmək istəyənlər onun ”Poçt qutusu” hekayəsini yenidən oxusunlar”**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, tanınmış dilçi-alim, professor Buludxan Xəlilovun fikrincə də Mirzə Cəlilin əsərlərinə toxunmaq olmaz.** O qeyd etdi ki, ermənilərin iç üzünün, əsl mahiyyətinin açılmasında Mirzə Cəlilin mühüm rolu var. Onun sözlərinə görə, bu əsərlərdə ermənilər ifşa olunur. "Mirzə Cəlilin əsərlərinin heç bir redaktəyə ehtiyacı yoxdur. O, tarixi yazıb. Konkret olaraq, erməni məsələsinə gəldikdə isə, çox tövsiyə edərdim ki, Mirzə Cəlili redaktə etmək istəyənlər onun "Poçt qutusu" hekayəsini də, "Kişmiş oyunu"nu da, "Danabaş kəndinin əhvalatları"nı da yenidən oxusunlar və ona müasir düşüncə ilə yanaşsınlar. Mirzə Cəlil öz əsərlərini elə bir düşüncə ilə yazıb ki, orada erməni məsələsinə toxunarkən o, bütün zamanları adlayıb keçir. Əksinə, Mirzə Cəlil bu əsərlərdə erməni xislətini, ermənilərin iç üzünü, mahiyyətini açıb göstərib. Çox təəssüflər olsun ki, belə bir tendensiya baş alıb gedir. Bəzi insanlar, onların arasında müəyyən qələm sahibi olanlar da var, yazıçılarımızın əsərlərində erməni məsələsi ilə qarşılaşan kimi deyirlər ki, həmin yazıçıların bu cür əsərləri tədrisdən də çıxarılmalıdır, redaktə olunmalıdır, ümumiyyətlə, bu əsərlər ədəbiyyat tariximizdən silinməlidir. Həmin adamlar bilməlidir ki, bu əsərlər Sovet dönəmində təhlil olunub. Mirzə Cəlildən danışırıqsa, onun əsərlərinin yenidən azərbaycançılıq ideologiyası, məfkurəsi əsasında təhlil edilməsi ortaya yeni reallıqlar çıxaracaq. Birincisi, Mirzə Cəlilin nə qədər böyük sənətkar olduğu, onun erməniləri nə qədər dərindən tanıyıb xarakterizə etməsi, digər tərəfdən də onun güclü qələm sahibi olması meydana çıxacaq. Eyni zamanda da bu, yeni bir tendensiya yaradacaq. Yəni Mirzə Cəlildən başlayaraq erməni obrazını əsərlərinə gətirən digər yazıçılarımızı yenidən öyrənmək lazımdır. Onlar kimlərdir? Üzeyir Hacıbəyov, Yusif Vəzir Çəmənzəminli, Nəriman Nərimanov, Cəfər Cabbarlını yenidən öyrənib, bütün bunları ümumiləşdirib belə nəticəyə gəlmək, bəzi müasir ədəbi tənqidçilər, ədəbiyyatşünaslar bu məsələ ilə məşğul olub onların əsərlərini yenidən təhlil etmək əvəzinə, bu fikrə düşürlər ki, bu əsərləri ədəbiyyat tariximizdən çıxaraq, yaxud da redaktə edək. Mirzə Cəlil redaktə olunmayan yazıçıdır.

O kifayət qədər milli bir insan olub və millətinin taleyi ilə məşğul idi. O hətta xalqının çatışmayan cəhətlərini tənqid edərkən də onu yanğı ilə, islah etmək naminə tənqid edib. Ona görə də tövsiyə edərdim ki, Mirzə Cəlilin yaradıcılığındakı erməni məsələsi redaktə yox, yenidən oxunub təhlil edilsin" - deyə B.Xəlilov qeyd etdi.

*İradə SARIYEVA*

# Azərbaycan teleefirində Koreya serialları nümayiş etdirilsə...

**Azərbaycan televziyalarında Koreya film və seriallarının yayımlanması məsələsi gündəmə gəlib. Bu təklif Koreya Respublikasının Azərbaycandakı səfiri Kim Tonq-Opla Milli Televiziya və Radio Şurasının sədri (MTRŞ) Nuşirəvan Məhərrəmovun görüşündə səfir tərəfindən səsləndirilib. Səfir görüşdə Koreya film və seriallarının Azərbaycanda yayımlanmasında maraqlı olduqlarını gizlətməyib.**



Bilirik ki, bəzi ölkələrin istehsal etdiyi film və seriallarda həmin ölkələrlə bağlı bəzən yanlış örnəklər "bədii yozum" altında bizim tamaşaçılara da təlqin edilir. Bu serial və filmlərə baxarkən insanda belə təəssürat yaranır ki, həmin ölkələrdə cinayətkarlığa, eləcə də digər neqativ hallara bəraət qazandırılır və bu filmlər vasitəsilə başqa cəmiyyətlərə ixrac edilir. Əslində isə bəzən kinematoqrafçılar bilərəkdən öz ölkələri haqqında təhriflərə yol verirlər.

Müasir Azərbaycan tamaşaçısının Koreya film və serialları haqqında elə də geniş təsəvvürü yoxdur. Bu baxımdan, Koreya film və serialları haqqında mütəxəssislərin fikirlərini öyrənmək istədik.

Koreya film və seriallarının bizim üçün maraqlı cəhətləri nədir? Bu örnəklər Azərbaycan tamaşaçısının diqqətini hansı göstəriciləri ilə cəlb edə bilər?

Kino mütəxəssislərinin bildirdiyinə görə, Azərbaycan və Koreya arasında bir sıra sahələrdə, o cümlədən də mədəniyyət sahəsində əməkdaşlıq mövcuddur. Bir neçə dəfə Azərbaycanda Koreya kinosu günlərinin keçirildiyini qeyd edən mütəxəssislərin bildirdiyinə görə, bu ölkənin istehsal etdiyi filmlər nəinki Bakıda, hətta Sumqayıtda, Lənkəranda və digər şəhərlərdə də nümayiş etdirilib.

**Tanınmış kinoşünas Ayaz Salayev "Bakı-Xəbər"ə bildirdi ki, müasir Koreya film və seriallarının Azərbaycanda kütləvi nümayişi həyata keçirilərsə, bu çox müsbət hal olardı.** A.Salayevin sözlərinə görə, hazırda Koreya kinosu dünyanın inkişaf edən kinolarından biridir. "Azərbaycan tamaşaçısı Koreya filmlərindən çox şey qazana bilər. Çünki əsl sənət əsəri olan Koreya kinosu son illər çox inkişaf edərək dünya səviyyəsinə çıxıb. Artıq neçə ildir bu filmlər dünya tamaşaçıları tərəfindən maraqla izlənir. Bizim ölkədə həqiqətən də sənət əsəri olan Koreya film və serialları nümayiş olunarsa, bunun çox müsbət effekti ola bilər. Koreya filmi bu gün özünün dirçəliş dövrünü yaşayır"-deyə A.Salayev qeyd etdi.

***Ayaz Salayev:* ”Bizim ölkədə həqiqətən də sənət əsəri olan Koreya film və serialları nümayiş olunarsa, bunun çox müsbət effekti ola bilər”**

***Əli İsa Cabbarov:* ”Bu ölkədə istehsal edilən filmlərin Azərbaycan telekanallarında nümayiş olunmasından bizim tamaşaçılar 100 faiz qazanar”**

**Tanınmış kino mütəxəssisi Əli İsa Cabbarov da bizimlə söhbətində Koreya filmlərinin başqa ölkələrin filmlərindən müsbət mənada çox fərqləndiyini dedi.** O hesab edir ki, Koreya filmlərində müasir insanın düşüncəsi, onun daha qabarıq formada təzahürü əsas götürülüb: "Koreya filmləri çox inkişaf edib. Bu ölkədə istehsal edilən filmlərin Azərbaycan telekanallarında nümayiş olunmasından bizim tamaşaçılar 100 faiz qazanar. Tamaşaçılarımızın o filmlərə ehtiyacı var. Mən Koreya seriallları ilə tanış deyiləm, ancaq filmləri ilə tanışam, mövzusu insan dramını, insan psixologiyasını ifadə edən gözəl nümunələrdir. O filmlər təbliğat filmləri deyil, sırf sənət əsərləridir. Bu filmlər festivallarda iştirak edir və çox yüksək qiymətləndirilir. Koreya filmləri bizim tamaşaçılar üçün çox maraqlı olar. Ümumiyyətlə, televiziyalar dünya kinosunun gözəl filmlərini nə qədər çox nümayiş etdirsələr, bundan tamaşaçılarımız qazanar".

Həmsöhbətimiz, həmçinin, vurğuladı ki, bizim bəzi telekanallar dünyanın nüfuzlu kino festivallarında qalib olan Fransa, İtaliya, ABŞ, Koreya və s. ölkələrin filmlərini nümayiş etdirmir. O hesab edir ki, telekanallar belə filmlərin nümayişinə üstünlük verməlidirlər.

*İradə SARIYEVA*

№ 48 (3946) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

13 MART 2019-cu il

www.baki-xeber.com

## "Azercell" "Kibertəhlükəsizlik həftəsi"nə qoşulub

*"Azercell Telekom" MMC bölgələrdə "Təhlükəsiz internet" mövzusuna dair təlimlər təşkil edir*

**Azərbaycanda ilk dəfə olaraq kibertəhlükəsizlik sahəsində maarifləndirmə və informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, informasiya proseslərinin mühafizəsinə nail olmaq məqsədilə 11-15 mart 2019-cu il tarixlərində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən beynəlxalq "Kibertəhlükəsizlik həftəsi" keçiriləcək.**




"Kibertəhlükəsizlik həftəsi"nin əsas istiqamətlərindən biri virtual dünyada uşaqların təhlükəsizliyinin təmin edilməsidir. Bu sahədə böyük təcrübəsi olan "Azercell Telekom" MMC həftənin aktiv iştirakçılarından biridir. Qeyd edək ki, "Kibertəhlükəsizlik həftəsi" çərçivəsində "Azercell" tərəfindən təhsil müəssisələrində uşaqlar, valideynlər və müəllimlər üçün internetdən təhlükəsiz istifadə mövzusunda təlimlər təşkil edilir. Artıq mart ayının 4-dən 7-nə kimi Şəmkirdə "Azercell"in dəstəyilə "Azərbaycan Müəllim İnkişafı Mərkəzi" tərəfindən "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda təlim keçirilib. Təlimdə 166 şagird, 38 müəllim və valideyn iştirak edib.

Təlimlərdə böyüklərlə yanaşı, uşaqların da həyatının ayrılmaz hissəsinə çevrilən internetdə rastlanan təhlükələr barədə məlumat verilir. Yüzlərlə iştirakçısı olan treninqlərdə məktəblilərə kibertəhlükəsizlik anlayışı aşılanır, internetdən gələn təhlükənin dərəcəsi, səbəbləri araşdırılır. Uşaqlar təhlükəsiz portallarla tanış edilir, onlara təhlükəsiz axtarış saytlarından istifadə qaydaları öyrədilir. Təlimlərdə internetdəki təhlükəli oyunlar, ekstremizm çağırışları,insanların maliyyə məlumatlarının, özəl informasiyanın oğurlanması kimi hallarla mübarizə yollarından bəhs olunur, internet təhlükəsizliyi, təhlükəsiz ev mühiti, şagirdlərin üzləşə biləcəkləri çətinliklərlə bağlı ətraflı məlumat verilir. Təlimlərdə, eyni zamanda, müəllim və valideynlərə qurğuların kibertəhlükələrdən mühafizəsi, login və parolların kibermüdafiəsi, təhlükəsiz paylaşma üsulları öyrədilir, şəbəkədən səmərəli istifadə ilə bağlı tövsiyələr verilir, uşaqlar üçün yaradılmış təhlükəsiz resursların siyahıları, internetdən təhlükəsiz istifadənin əsaslarını öyrədən materiallar təqdim olunur. Qeyd edək ki, indiyədək Azərbaycanın müxtəlif bölgələrində "Azercell"in təşəbbüsü ilə məktəblilər, valideynlər və müəllimlər üçün keçirilən bu cür təlimlərlər gələcəkdə də mütəmadi olaraq təşkil olunacaq.

"Kibertəhlükəsizlik həftəsi" çərçivəsində "Azercell Telekom" MMC-nin növbəti təlimi 11-15 mart tarixlərində Gəncədə baş tutacaq. Dünyada kiber təhlükələrin sayı və əhatə dairəsi genişləndiyindən, hazırda valideyn nəzarəti proqramlarına daha çox ehtiyac yaranmaqdadır. Bu baxımdan, artıq 3 ildir tətbiq olunan "Azercell Plus Təhlükəsizlik" proqramı böyük əhəmiyyət kəsb edir. Bu proqram uşaqlar üçün internet şəbəkəsində təhlükəsizliyə yönəldilmiş "Universal Müdafiə", "Android üçün müdafiə" və "Valideyn nəzarəti" xidmətlərini əhatə edir. Bu proqram uşağın sosial şəbəkələrdə postlarını və dostlar siyahısındakı dəyişiklikləri izləməyə, onun qoşulduğu qruplardan xəbərdar olmağa, yerini müəyyənləşdirmək və onun üçün təhlükəsiz ərazi yaratmaq imkanı verir.

Qeyd edək ki, "Kibertəhlükəsizlik həftəsi"nin məqsədləri sırasında əhalinin bu sahədə maarifləndirmə səviyyəsinin artırılması, habelə ümummilli hazırlığın yüksəldilməsinə nail olmaq mühüm yer tutur. Həftə çərçivəsində fərqli qurumların dəstəyilə müxtəlif forum və tədbirlər, müsabiqələr də təşkil olunacaq. Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## "Nar" "İlin mobil operatoru" mükafatına layiq görüldü

**Ölkənin ən gənc mobil operatoru olan "Nar" "Navigator Business Awards" tərəfindən "İlin ən yaxşı mobil operatoru" nominasiyasında mükafata layiq görülüb.**




"Nar" təqdim etdiyi tariflər və sərfəli qiymətlər, baza stansiyalarının sayını sürətlə artırmaqla hazırda ölkədə ən geniş 3G və 4G şəbəkələrindən birinə malik olması, müştəriyönümlülüyü ilə seçilən fəaliyyəti, eyni zamanda, mobil operatorun dünya təcrübəsindən yararlanaraq öz biznes strategiyasını uğurla təkmilləşdirməsi nəticəsində "İlin ən yaxşı mobil operatoru" adına layiq görülüb. Bundan başqa, təşkilatçılar mobil operatorun göstərdiyi yüksək dinamik inkişafı, irihəcmli investisiyalar yatırmaqla müştərilərinin və tərəfdaşlarının tələblərinə uyğun müasir həllər təqdim etməsini yüksək qiymətləndiriblər.

Qeyd edək ki, Navigator.az regional biznes portalı 10 ildən artıqdır ki, Azərbaycanda və Gürcüstanda fəaliyyət göstərir. Bu ölkələrdən olan minlərlə şirkət Navigator.az vasitəsilə bizneslərini inkişaf etdirməyə nail olublar. Regionun ən iri biznes portalı olan Navigator.az öz tərəfdaşı olan 26 min şirkət və təşkilat sırasından ən layiqlilərini müəyyən etmək üçün regional "Navigator Business Award" mükafatını təsis edib. "Navigator Business Award" Cənubi Qafqaz regionunun biznes sahəsində ən mötəbər mükafatı sayılır və Azərbaycanda və Gürcüstanda ölkələrin inkişafında və öz xalqlarına xidmətdə müstəsna uğurları olan şirkətləri müəyyən etmək üçün yaradılıb.

Qeyd edək ki, "Nar" ötən il ərzində şəbəkə infrastrukturunu əhəmiyyətli dərəcədə təkmilləşdirməklə 3G və 4G baza stansiyalarının sayını və əhatə dairəsini artırmış, 45-dən çox bölgədə LTE şəbəkəsi yaradıb. "Nar"ın təqdim etdiyi yüksək sürətli internet sayəsində 4G xidmətindən istifadə edən abunəçilərinin sayı 500 mini keçib. Mobil operatorun müştərilərə göstərdiyi yüksək keyfiyyətli xidmət sayəsində ötən il müştəri məmnuniyyətində sürətli artım müşahidə olunub və "Nar" müştəri məmnuniyyəti indeksi üzrə ən yüksək artım nümayiş etdirib. Bundan başqa, mobil operator korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində ölkə üçün əhəmiyyətli sosial layihələr reallaşdırıb.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

### Elan

Quliyeva Çiçək Mamed qızının adına, Bakı şəhəri, Binəqədi rayonu, 9-cu mikrorayon, Adil Məmmədov küçəsi, ev 11, mənzil 69 ünvanının çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

**Əli, Almaz, İlham, Tofiq, Rafiq, Qurban, Solmaz, Roza, Sitarə Əlizadələr, Mahal Qurbanov, Bayram Rəsulzadə Borçalının Faxralı kəndinin dəyərli ziyalı oğlu, həssas qəlbli insan Dünyamalı Abbasovun vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun əzizlərinə, doğmalarına dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin, ruhu şad olsun!**





**Qoç** - Gərgin situasiya sizi sınağa çəkir. Təmkinli davranın. Fəaliyyət prosesində ənənəvi çərçivələrdən kənara çıxmayın. Tərəfdaşlarınızın da fəal işləmələrinə şərait yaradın.



**Buğa** - Günün ilk yarısı münaqişə potensiallıdır. Yeni işlərə, layihələrə başlamaq, danışıqlar və müzakirələrə start vermək üçün əlverişsiz gündür. Maddi vəsaitə birgə sahiblik və maliyyə məsələlərində qarşı tərəfin mövqelərini nəzərə alın.



**Əkizlər** - İdeyalarınızı aqressiv müdafiə etməyin, mövqelərinizi sərt şəkildə qorumayın. Situasiya münasibətlərin ənənəvi, sabitləşmiş formatında yeniliklər tələb edir. Alış-verişdə bədxərclik etməyin.



**Xərçəng** - Məşəqqətli durumdan və qarışıq vəziyyətdən çıxış yolu arayanda düşünülməmiş addımlar atmayın. Problemlərin həllini sonraya saxlamayın. Kobudluğa aqressiv cavab verməyin.



**Şir** - Təmaslarda təşəbbüskar olun. Təfərrüatlarını yaxşı düşündüyünüz və gedişatı nəzarət altında saxlaya biləcəyiniz işlərdə uğur qazana bilərsiniz. Fəaliyyət üçün zəruri şərtlər yaradın.



**Qız** - Ünsiyyət asan deyil. Bir müddət tək qalın, müxtəlif informasiyaların və xəbərlərin sistemləşdirilməsi ilə məşğul olun. Fəaliyyət sahənizdəki bəzi texnikanın və ya avadanlığın təmirə ehtiyacı var.



**Tərəzi** - Dəqiqlik, səliqə və sürətli reaksiya tələb edən məsuliyyətli gündür. Cari işlərin çərçivəsində qalın. Qəfil yaranan problemlər, pis xəbərlər, əhvalınızın korlanması, yaxın qohumlardan birinin xəstələnməsi istisna deyil.



**Əqrəb** - Bir qədər dayanın, nəfəs alın. Yaxın gələcəklə bağlı perspektivlərdə zəruri dəqiqləşdirmələr aparın. Emosiyalar arxa plana keçməlidir. Soyuqqanlı olun, hər addımınızı ölçüb-biçin.



**Oxatan** - Yaşananları, başınıza gələnləri aramla, tələsmədən təhlil edin. Yanlış qərarlar verməyin. Hadisələrin intensivliyi artacaq. Vaxt qıtlığı hiss olunacaq. Uğurlu və mənasız təkliflər ala bilərsiniz.



**Oğlaq** - Günün ilk yarısında planları dəqiqləşdirin, sabitqədəm olun. Sinirlənməyin, qıcıqlı davranmayın. Emosiyaların öhdəsindən gəlməsəniz, səhhətinizdə problemlər yarana bilər.



**Dolça** - Mürəkkəb, qarışıq bir gündür. Qəza, zədə, münaqişələr riski artır. Mənfi potensiallı hadisələrin ehtimalı güclənir. Ehtiyatlı davranın, amma cəsarətli olun. Çətin situasiyalarda risk etməyə dəyməz.



**Balıqlar** - İstiqamətləri dəyişmək zamanıdır. Yaxın gələcəklə bağlı perspektivlər hələ bəlli deyil. Gərginliyi azaltmağın zamanıdır. Zəifliklərlə nöqsanları uğurlara çevirmək mümkündür.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## "Bakcell" ADA Universitetində keçirilmiş karyera yarmarkasına qatılıb

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti ADA Universitetinin təşkil etdiyi ənənəvi karyera yarmarkasında iştirak edib.**

Tədbirin informasiya texnologiyaları və telekommunikasiya sənayesinə həsr olunmuş günündə universitetin tələbə və məzunlarına "Bakcell" şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib.

Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan "Bakcell" şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına dəstək göstərir.

Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, müvafiq dövlət strukturları və təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanırlar.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 5200*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.